# ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

# НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

# SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 13 (140) ❖ Cümə, 19 aprel 2024-cü il ❖ Qəzet 1984-cü ildən nəşr olunur




## Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı tədbirlər haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2023-cü il noyabrın 10-da Türkiyə Respublikasının İstanbul şəhərində keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumu İcraiyyə Şurasının 11-ci iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri yekdilliklə İslam Əməkdaşlıq Təşkilatının "Gənclər Paytaxtı 2024" Beynəlxalq Proqramına 10-cu ev sahibi seçilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı fəaliyyət planı hazırlayıb həyata keçirsin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri,17 aprel 2024-cü il*

# Prezident İlham Əliyev Hacıqabul rayonunda Şirvan suvarma kanalının təməlini qoyub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlini qoyub və çıxış edib.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verib.

1958-ci ildə istifadəyə verilən və ölkənin ikinci ən böyük kanalı olan torpaq məcralı Yuxarı Şirvan suvarma kanalı başlanğıcını Mingəçevir su anbarından götürür. Yuxarı Şirvan kanalı Şirvan düzündə yerləşən Yevlax, Ağdaş, Göyçay, Zərdab, Ucar, Kürdəmir, İsmayıllı və Ağsu rayonlarının 112 min hektardan çox əkin sahəsini suvarma və yaşayış məntəqələrini məişət suyu ilə təmin edir.

Suötürmə qabiliyyəti saniyədə 78 kubmetr və uzunluğu 122 kilometr olan kanalın 65 ildən artıq fasiləsiz istismar edilməsi, illik su itkilərinin kəskin artması və qurğuların qəzalı vəziyyətə düşərək funksiyalarını itirməsi nəticəsində torpaqların meliorativ vəziyyəti pisləşərək deqradasiyaya uğrayıb. Bütün bunlar mövcud əkin sahələrinin vegetasiya dövründə suvarma suyu ilə təminatında çatışmazlıqlar yaradıb, bölgənin suya daim artan tələbatının ödənilməsindəki gərginliyi daha da dərinləşdirməklə ekoloji tarazlığın pozulmasına gətirib çıxarıb.

Yuxarı Şirvan suvarma kanalının infrastrukturunun bərpası, habelə mövcud təsərrüfatların su təminatı məsələlərinin vaxtında və səmərəli şəkildə həllinin dəstəklənməsi, su ehtiyatlarından daha səmərəli istifadə olunması, magistral kanalın suburaxma qabiliyyətinin artırılması məqsədilə aprelin 8-də Prezident İlham Əliyev Şirvan suvarma kanalının yenidən qurulması haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Yuxarı Şirvan suvarma kanalının adı dəyişdirilərək Şirvan suvarma kanalı adlandırılıb.

Dövlətimizin başçısı yenidən qurulacaq Şirvan suvarma kanalının təməlini qoyub.

Məlumat verilib ki, Agentliyin sifarişi ilə Türkiyənin "Su Yapı" məsləhətçi şirkəti tərəfindən Yuxarı Şirvan kanalının yenidən qurulması üzrə texniki-iqtisadi əsaslandırma sənədləri və 4 mərhələdə işçi layihə hazırlanıb. Kanalın müasir tələblər səviyyəsində yenidən qurulması və tikintisi mərkəzləşdirilmiş SCADA sistemi yaratmaqla su ehtiyatlarından daha səmərəli istifadəyə və optimal idarəetməyə, yaşayış məntəqələrinin məişət su təminatının yaxşılaşdırılmasına, 230 min hektar torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsinə, o cümlədən 110 min hektardan çox mövcud əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına və 116 min hektar əkinə yararlı torpaqların dövriyyəyə cəlb olunmasına, təqribən 346 milyon kubmetr su itkisinin qarşısının alınmasına, Hacıqabul gölünün, ətraf ərazilərin ekoloji və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılmasına, yüksək məhsuldarlığın əldə olunmasına, iri təsərrüfatlara məxsus əkin sahələrini suvarma suyu ilə təmin edən nasos stansiyalarının fəaliyyətinin dayandırılmasına və Pirsaatçay su anbarının nasos stansiyasının qidalandırılmasına imkan verəcək.

Prezident İlham Əliyev tədbirdə çıxış edib. Son illər ərzində Azərbaycanda həyata keçirilən infrastruktur layihələri arasında bu layihənin xüsusi əhəmiyyəti olduğunu deyib. Yuxarı Şirvan kanalının 1958-ci ildə inşa edildiyini qeyd edən dövlətimizin başçısı kanalın yeni mərhələsinin başladığını bildirib: "Faktiki olaraq kanal yenidən inşa ediləcək və beləliklə, minlərlə insan bu layihədən faydalanacaq. 120 kilometrlik kanalın uzunluğu təxminən iki dəfə artırılacaq və 200 kilometrdən çox olacaq. Əkin sahələrinə gəldikdə isə o da iki dəfədən çox artırılacaq. İcra ediləcək yeni layihə 230 min hektar əkin sahəsini əhatə edəcək. Bunun böyük hissəsi yeni suvarılacaq əkin sahələridir. Əgər əvvəlki dövrlərdə bu kanal 8 rayonu əhatə edirdisə, indi 10 rayonu əhatə edəcək və kanalın son nöqtəsi Hacıqabul gölü olacaq. Hacıqabul gölü də 10 ildən çoxdur ki, tamamilə quruyub. Kanal istifadəyə veriləndən sonra göl də dolacaq və bunun da təbiətə çox müsbət təsiri olacaqdır".

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycanda həyata keçirilən infrastruktur layihələrinin əsas məqsədi ölkəmizin sürətli inkişafını təmin etmək, insanların rifah halını yaxşılaşdırmaq, xüsusilə bölgələrdə yaşayan insanların məşğulluğu üçün şərait yaratmaqdır.

Dövlətimizin başçısı su kəmərləri, içməli su, o cümlədən suvarma ilə bağlı olan layihələrin artıq öz səmərəsini göstərdiyini deyib. Əvvəlki illərdə bu sahəyə aid bir çox böyük layihələr sırasında yer alan Taxtakörpü-Ceyranbatan suvarma kanalının və Qarabağ kanalının əhəmiyyətinə toxunub.

Prezident İlham Əliyev iqlim dəyişikliyi ilə bağlı dünyada, o cümlədən Azərbaycanda yaşanan böyük narahatlıqla bağlı məsələyə diqqət çəkib: "Bu il kifayət qədər qar, yağış yağmışdır və bizim su hövzələrimizdə, su anbarlarında kifayət qədər su var. Ancaq əvvəlki illərdə biz hər il quraqlıqla üzləşirdik. Bizim dağlarımıza daha az qar yağırdı. Çaylarımızda suyun səviyyəsi əvvəlki illərdə aşağı düşürdü, bəzi hallarda əsas çaylarımız quruyurdu. Xəzər dənizinin dayazlaşması göz önündədir. Bunu hər kəs görə bilir. Belə olan halda su ehtiyatlarından səmərəli şəkildə istifadə etmək bizim başlıca vəzifəmizdir".

Dövlətimizin başçısı qeyd edib ki, Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində biz bu gün öz su mənbələrimizə tam sahib olmuşuq: "Vaxtilə Ermənistan təkcə bizim torpaqlarımızı yox, bizim su resurslarımızı da işğal etmişdir. Qarabağ və Şərqi Zəngəzurda mövcud olan su resursları bizim ümumi su resurslarımızın 25 faizini təşkil edir. Bu su resurslarının əsas xüsusiyyəti, müsbət tərəfi odur ki, bunlar daxili mənbələr hesabına formalaşan su resurslarıdır. Çünki bildiyiniz kimi, bizim əsas çaylarımız xaricdən gəlir - Kür çayı, Araz çayı, Samur çayı. Bizim əsas çaylarımız xaricdən gəlir, ona görə Qarabağın və Şərqi Zəngəzurun su resursları daxili mənbələr olduğu üçün bunun xüsusi əhəmiyyəti var. Biz qısa müddət ərzində böyük infrastruktur layihələrini icra etmişik və bu işlər davam etdirilir Əminəm, Azərbaycan xalqı da tam əmindir ki, dediyimiz bütün sözlər, verdiyimiz bütün vədlər hər zaman yerinə yetirilir və bu gün dediyim, bu layihələrin icrası da tam təmin ediləcək. Biz üç ildən sonra - uzaqbaşı 2027-ci ilin sonuna qədər Şirvan kanalının da açılışını qeyd edəcəyik".

# Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfrans



**Aprelin 15-də AMEA-nın Rəyasət Heyəti, AMEA-nın Humanitar və İctimai Elmlər bölmələri və İraq-Azərbaycan Dostluq Cəmiyyətinin birgə təşkilatçılığı ilə “Dahi Azərbaycan şairi Məhəmməd Füzuli müştərək müsəlman mədəniyyətinin yetirməsi kimi” adlı beynəlxalq elmi konfrans keçirilib.**



Görkəmli Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illik yubileyinə həsr olunmuş konfransa 20-si Türkiyə, İraq, Suriya, Özbəkistan, Rusiyadan olmaqla, ümumilikdə 111 iştirakçı qatılıb.

AMEA-nın Əsas binasının Dairəvi zalında baş tutan tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin dahi şairin 500 illik yubileyindəki çıxışından kadrlar nümayiş etdirilib.



Gövhər Baxşəliyeva



Anar



Mutaz Muhyi Əbdülhəmid



Dilşod Qayipov



Sabah Kərküklü



Nurboy Cabbarov



Salimaxon Mirzayeva



Abuzər Bağırov



Ruhəngiz Cümşüdlü

Tədbiri giriş sözü ilə açan **AMEA-nın prezidenti akademik İsa Həbibbəyli** beynəlxalq konfransın ölkə başçısının “Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında” 25 yanvar 2024-cü il tarixli Sərəncamı çərçivəsində keçirildiyini diqqətə çatdırıb. Bildirib ki, sözügedən Sərəncam dahi şairin irsini müstəqil Azərbaycan dövlətinin idealları işığında Azərbaycançılıq ideologiyası və Türk dünyası kontekstində yenidən tədqiq etməyə imkan vermiş oldu.

Akademiyada Məhəmməd Füzulinin həyat və yaradıcılığı ilə bağlı geniş tədqiqatlar aparıldığını qeyd edən akademik İsa Həbibbəyli hazırda AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Füzulişünaslıq sektoru tərəfindən dahi şairə həsr olunmuş 1000 səhifəlik kollektiv monoqrafiyanın hazırlanmaqda olduğunu vurğulayıb. Həmçinin ədibin UNESCO-nun “Dünya yaddaşı” beynəlxalq reyestrinə daxil edilmiş anadilli “Divan”ının yenidən çapa hazırlanacağını, ölkəmizdə və beynəlxalq müstəvidə təqdimatlarının keçiriləcəyini bildirib. Bundan əlavə, AMEA-nın Əlyazmalar, Şərqşünaslıq, Ədəbiyyat və digər institutlarında Füzulinin 530 illik yubileyinə həsr olunmuş konfransların keçirildiyini, nəşrlərin çapa hazırlandığını və bu prosesin il ərzində davam edəcəyini söyləyib. Eyni zamanda İraqda da Füzuliyə həsr olunmuş bir neçə tədbirin keçirilməsinin nəzərdə tutulduğunu vurğulayıb.

AMEA prezidenti bildirib ki, keçirilən tədbirlərin digər başlıca məqsədi isə Füzulini yenidən dünyaya Azərbaycan şairi kimi tanıtmaqdan ibarətdir və onun azərbaycanlı olmağı heç kimdə şübhə doğurmur: “Füzulinin mənşəyi azərbaycanlı, dili isə Azərbaycan türk dilidir. Ulu Öndər Heydər Əliyevin də dediyi kimi, Füzuli türk xalqlarını birləşdirmiş şəxsiyyətdir. Füzuli Şərqin, ümumilikdə isə dünyanın böyük sənətkarlarından, şairlərindən biridir. Dili, üslubu və şeirlərindəki məcazları baxımından dünyada onunla müqayisə oluna biləcək az şair vardır”.

Akademik İsa Həbibbəyli qeyd edib ki, bugünkü tədbirdə İraq, Özbəkistan, Rusiya və başqa ölkələrdən tanınmış alimlər iştirak edirlər və bu, Füzulinin irsini dünyaya çıxarıb tanıtmaq baxımından olduqca önəmlidir.

AMEA rəhbəri çıxışının sonunda vurğulayıb ki, Məhəmməd Füzuli mükəmməl yaradıcılığı ilə dahilik zirvəsinə yüksəlib, Azərbaycan və Türk dünyasının ədəbi-bədii fikrini zənginləşdirib və onun irsi dövlət başçısının Sərəncamı işığında yenidən tədqiq olunaraq gələcək nəsillərə çatdırılacaq.

Tədbirdə çıxış edən **AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva** bildirib ki, Azərbaycan ədəbi-bədii fikir tarixində böyük rol oynayan, bir çox Şərq xalqları ədəbiyyatına mühüm təsir göstərən böyük şair və mütəfəkkir Məhəmməd Füzulinin ölməz bədii-fəlsəfi irsi xalqımızın bəşər sivilizasiyasına bəxş etdiyi əvəzolunmaz mədəni sərvətdir. Akademik Gövhər Baxşəliyeva Azərbaycan, ərəb və fars dillərində 16 irihəcmli əsərin müəllifi olan dahi şairin yaradıcılığının həm Qərb, həm də azərbaycanlı tədqiqatçılarının onun ecazkar yaradıcılığının orijinallığını, poetikasının yüksək bədiiliyini və incəliyini qeyd etdiklərini, onu Azərbaycan-türk ədəbiyyatı tarixində ən həssas lirik və romantik şair adlandırdıqlarını qeyd edib.

Akademik Gövhər Baxşəliyeva rəhbərlik etdiyi Şərqşünaslıq İnstitutunda da dahi şairin ölməz yaradıcılığının diqqət mərkəzində olduğunu, zaman-zaman onun müxtəlif aspektlərinə həsr olunmuş monoqrafiya, kitab və məqalələr dərc olunduğunu, dissertasiyaların müdafiə edildiyini vurğulayaraq, institut alimlərindən Aydın Abıyevin “Füzuli və Türkiyə poeziyası”, Ruhəngiz Cümşüdlünün “Füzulinin ərəbcə poetik irsi”, Şəfəq Əlibəylinin “Füzulinin farsca divanı: linqvo-poetik özəlliklər” adlı monoqrafiyalarının çap olunduğunu xatırladıb.

**Azərbaycan Yazıçılar Birliyinin sədri Anar** isə çıxışında tədbir iştirakçılarını AYB-nin adından salamlayıb, Füzulinin Nizami və Nəvai ilə birlikdə Türk dünyasının ən böyük şəxsiyyətlərindən biri olduğunu söyləyib. Füzulinin yaradıcılığına nəzər salan AYB sədri dahi şairin yazdığı mükəmməl əsərlərlə Azərbaycan və dünya ədəbiyyatına təsir etdiyini, onun hikmətinin əsrlərdir yaşadığını bildirib.

**İraq Strateji Araşdırmalar Mərkəzinin direktoru, İraq-Azərbaycan Dostluq Cəmiyyətinin sədri professor Mutaz Muhyi Əbdülhəmid** çıxışında vurğulayıb ki, İslam və Azərbaycan ədəbi düşüncəsinin inkişafında müstəsna rola malik olan Məhəmməd Füzuli bütün İslam dünyasının bənzərsiz mənəvi xəzinələrindən hesab olunur.

M.M.Əbdülhəmid Azərbaycanla İraq arasında əlaqələrin inkişafına görə, akademik İsa Həbibbəyliyə, akademik Gövhər Baxşəliyevaya, Ədəbiyyat İnstitutunun şöbə müdiri professor İmamverdi Həmidova, Şərqşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini filologiya üzrə fəlsəfə doktoru, dosent Ruhəngiz Cümşüdlüyə və Şərqşünaslıq İnstitutunun şöbə müdiri fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Mustafayevə İraq Strateji Araşdırmalar Mərkəzinin və İraq-Azərbaycan Dostluq Cəmiyyətinin Fəxri fərmanlarını təqdim edib.

**Ürgənc Dövlət Universitetinin Özbək ədəbiyyatı fakültəsinin dekanı filologiya elmləri doktoru, professor Dilşod Qayipov** isə çıxışında Məhəmməd Füzulinin Şərq ədəbiyyatında tutduğu mövqedən danışıb.

Daha sonra konfransın məruzələrinə başlanılıb.

**İraq Mədəniyyət Nazirliyi nəzdində Türkman Mədəniyyət Mərkəzinin sədri, “Türkman mədəniyyəti” jurnalının baş redaktoru doktor Sabah Kərküklü** “Füzuli əl-Bağdadi və tarixçilərin mübahisəsi” mövzusunda məruzə edib. Məruzədə Məhəmməd Füzulinin doğum tarixi, yeri, milli mənsubiyyəti, məzhəbi, əqidəsi barədə tarixçilərin mübahisəsindən bəhs edilib, onların müxtəlif fikirlərinə münasibət bildirilib.

**Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin kafedra müdiri filologiya elmləri doktoru, professor Nurboy Cabbarov** “Əlişir Nəvai və Məhəmməd Füzuli” adlı məruzəsində Nəvai və Füzuli yaradıcılığının iki qardaş xalqın tarixində birgə qardaşlıq simvolu olduğunu qeyd edib.

**Özbəkistan Respublikası Əndican Dövlət Universitetinin professoru filologiya elmləri doktoru Salimaxon Mirzayevanın** “Füzuli yaradıcılığında şah beytlər” mövzusunda məruzəsi Füzulinin yaradıcılığının, onun qəzəllərinin təhlili və təfsirinə həsr olunub. Məhəmməd Füzulinin türk xalqlarının ortaq şairi olduğunu deyən məruzəçi şairin yaradıcılığının nəcib keyfiyyətləri ilə özbək poeziyasının inkişafına töhfələr verdiyini, şeirlərinin uzun əsrlər boyu özbək xalqı tərəfindən sevildiyini, oxunduğunu bildirib.

**Rusiya Elmlər Akademiyası M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun aparıcı elmi işçisi, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun professoru, filologiya elmləri doktoru Abuzər Bağırov** “Məhəmməd Füzuli və Azərbaycan ədəbiyyatında qəzəl janrı” mövzusunda məruzəsində Azərbaycan dilində Füzulidən əvvəlki dövr lirik qəzəl yaradıcıları olan sələf şairlərinin yaradıcılığını qısaca təhlil edib, Məhəmməd Füzulinin öz poetik məktəbinin yaradılmasında rolunu və davamçılarını, xüsusən Azərbaycan ədəbiyyatında bir çox yüksək səviyyəli lirik qəzəl yaradıcılarına təsirini ətraflı araşdırıb, qəzəl janrının Yaxın Şərqdə, xüsusən də Azərbaycan poeziyasında geniş yayılmasının əsas səbəblərini ətraflı müəyyən edib, lirik qəzəl ustadının orijinal ədəbi texnikasını konkret olaraq göstərib.

**AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini filologiya üzrə fəlsəfə doktoru, dosent Ruhəngiz Cümşüdlü** “Füzulinin ərəbcə poetik irsinin tədqiqi haqqında” mövzusunda məruzəsində dahi Azərbaycan şairi Füzulinin 3 dildə - Azərbaycan-türk, ərəb və fars dillərində müxtəlif janrlarda yazıb yaratdığını, Şərq ədəbiyyatının şifahi və yazılı nümunələrini bədii şəkildə ümumiləşdirdiyini qeyd edib. Məruzəçi bildirib ki, ərəbcə şeirləri ilə ərəb fəsihlərini sevindirdiyini fəxarətlə söyləyən Füzulinin ərəbcə poetik irsi uzun müddət elm aləminə naməlum qalmışdır və 1929-cu ildə akademik Y.Bertels tərəfindən Sankt-Peterburqda Asiya muzeyində aşkarlanmışdır. Lakin bu əlyazmada ərəbcə şeirlər natamam şəkildə əks olunmuşdur.

Konfrans daha sonra Şərqşünaslıq İnstitutunda bölmə iclasları ilə davam edib. Konfrans aprelin 16-da başa çatıb.

# Məhəmməd Füzuli və Türk dünyası

**Aprelin 16-da AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda “Məhəmməd Füzuli və Türk dünyası” adlı beynəlxalq elmi konfrans keçirilib.**

Tədbirdə Özbəkistanın 7 ali təhsil müəssisəsinin, İraq-Azərbaycan Dostluq Cəmiyyətinin nümayəndələri, eləcə də AMEA-nın Gəncə Bölməsinin, Ədəbiyyat, Folklor və Dilçilik institutlarının əməkdaşları iştirak ediblər.

Konfransı AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli açaraq ölkə başçısının “Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında” 25 yanvar 2024-cü il tarixli Sərəncamına əsasən ötən gün Akademiyada “Dahi Azərbaycan şairi Məhəmməd Füzuli müştərək müsəlman mədəniyyətinin yetirməsi kimi” adlı beynəlxalq elmi konfransın keçirildiyini bildirib. O, Məhəmməd Füzulinin Azərbaycan xalqının dünya ədəbiyyatına bəxş etdiyi qüdrətli sənətkar olduğunu, Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutduğunu vurğulayıb.

Ümummilli Lider Heydər Əliyevin vaxtilə Füzuli irsinə yüksək qiymət verdiyini söyləyən alim qeyd edib ki, Ulu Öndər Türkiyə Böyük Millət Məclisindəki çıxışında demişdir: “Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olmuşdur. Füzuli bizi yaşadaraq bu günlərə gətirib çıxarmışdır”.

Akademik İsa Həbibbəyli bildirib ki, Prezident İlham Əliyevin fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimindəki nitqində Türk birliyi haqqında fikirləri gələcək strategiyamızı müəyyənləşdirdi, yeni dövr üzrə prioritetləri aydın formada ortaya qoydu. O, dövlət başçısının çıxışında səsləndirdiyi “Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır. Bu, bizim üçün prioritetdir” sözlərinin bir çox cəhətdən ciddi mesajları özündə əks etdirdiyini bildirib. Alim ölkə başçısının ortaya qoyduğu yeni hədəflərə müvafiq olaraq Ədəbiyyat İnstitutunun Elmi şurasının qərarı ilə 3 cilddə “Türk xalqları ədəbiyyatı tarixi”nin hazırlanacağını diqqətə çatdırıb.



“Lirik şeirin bənzərsiz nümunələrini yaradan Füzuli orta əsrlərdə Türk dünyasında yaşayıb-yaratmış ən böyük sənətkarlar sırasındadır”, - deyən akademik İsa Həbibbəyli şairin lirikasının təkrarsız olduğunu və Füzulinin lirik şeirin zirvəsini fəth etdiyini söyləyib.

Onun sözlərinə görə, Füzulinin “Leyli və Məcnun” poeması Nizami Gəncəvi və Əlişir Nəvaidən sonra meydana çıxan və dünya poeziyasında məhəbbət mövzusunda qələmə alınan ən yaxşı əsərlərdəndir. Bu poema epik şeirimizin ən gözəl nümunələrindən hesab olunur. AMEA rəhbəri Füzulinin ana dilində yaratdığı əsərin orijinallığı ilə bu mövzuda əvvəllər yazılmış poemalardan seçildiyini, burada aşiqanə qəzəllərin də yer aldığını söyləyib. O, görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun nəinki Azərbaycan, eləcə də müsəlman və Türk dünyasında ilk opera janrında olan əsərinin məhz Füzulinin “Leyli və Məcnun” poemasının motivləri əsasında qələmə alınmasının heç də təsadüfi olmadığını bildirib.

AMEA prezidenti diqqətə çatdırıb ki, Füzuli yaradıcılığında dini motivlər qırmızı xətt kimi keçir, bu xəttin mərkəzində isə Əhli-beyt sevgisi durur. Füzulinin qəzəllərində əks olunan eşqin mahiyyəti dini motivlər, söz ustadının Allaha olan sevgisi-ilahi eşq və digər məsələlər ətrafında şərh olunub. Ədibin “Hədiqətüs-süəda” əsəri onun dini düşüncə, iman və əqidə duyğularının bədii əksi kimi çox səciyyəvi bir əsərdir.

Akademik İsa Həbibbəyli “Məhəmməd Füzuli və Türk dünyası” mövuzusunda keçirilən tədbirin əhəmiyyətini qeyd edib, konfransın işinə uğurlar arzulayıb.

Daha sonra İraq Strateji Araşdırmalar Mərkəzinin direktoru, İraq-Azərbaycan Dostluq Cəmiyyətinin sədri professor Mutaz Muhyi Əbdülhəmid “Məhəmməd Füzuli və İraq ədəbi mühiti” mövzusunda məruzə ilə çıxış edib.

Tədbirdə AMEA-nın Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzinin rəhbəri filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarov, Moskvada yaşayan həmvətənimiz professor Abuzər Bağırov, Özbəkistanın Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universitetinin professoru Nurbay Cabbarov, Urgənc Dövlət Universitetinin Özbək filologiyası fakültəsinin dekanı professor Dilshod Gayipov, Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin professoru İslom Yoqubov çıxış edərək Türk dünyasının ortaq şairi Füzuli yaradıcılığının müxtəlif məqamlarına toxunublar.

Ədəbiyyat İnstitutunun Füzulişünaslıq sektorunun müdiri filologiya elmləri doktoru, dosent Ataəmi Mirzəyev “Məhəmməd Füzulinin Türk ədəbiyyatına təsiri” və aparıcı elmi işçi filologiya üzrə fəlsəfə doktoru, dosent Zəkulla Bayramlı “Məhəmməd Füzuli və klassik Cağatay ədəbiyyatı” mövzusunda məruzələrində bir sıra maraqlı faktları diqqətə çatdırıblar. Məruzələrdə böyük Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin dünya lirik poeziyasının parlaq simalarından olması, onun ölməz qəzəllərinin bu gün də aşiqlərin qəlbini fəth etməsi, məhəbbət, xeyirxahlıq, humanizm hisslərini aşılaması qeyd olunub.

Sonra İraq Mədəniyyət Nazirliyi nəzdində Türkman Mədəniyyət Mərkəzinin sədri, “Türkman mədəniyyəti” jurnalının baş redaktoru doktor Sabah Kərkülü “Füzuli Bağdadi və tarixçilərin mübahisəsi” məruzəsini təqdim edib. Məruzəçi bildirib ki, İraq Əlyazmalar Mərkəzi tərəfindən “Nəvainin “Müəmma” traktatına Füzulinin şərhi” adlı əlyazma nüsxəsi aşkarlanıb. Əlişir Nəvainin əsərinə Füzuli tərəfindən yazılan bu şərh 1554-cü ildə nüsxətti ilə qələmə alınıb.

Tədbirdən sonra konfrans iştirakçıları Məhəmməd Füzulinin heykəlini ziyarət edib, xatirə şəkli çəkdiriblər.

# Özbək və Azərbaycan filologiyasının aktual məsələləri

**Aprelin 15-də AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda “Özbək və Azərbaycan filologiyasının aktual məsələləri” adlı beynəlxalq konfrans işə başlayıb.**



Tədbiri giriş sözü ilə AMEA-nın prezidenti Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli açaraq Azərbaycan və Özbəkistanın dərin tarixi köklərə, ortaq milli-mədəni və mənəvi dəyərlərə, zəngin adət-ənənələrə mənsub dövlətlər olduğunu bildirib. Azərbaycan-Özbəkistan əlaqələrinin yeni müstəvidə, müasir dövrün çağırışlarına uyğun inkişaf etdiyini deyən AMEA rəhbəri iki ölkə arasındakı əlaqələrin son illərdə Prezident İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin sıx dostluq və qardaşlıq münasibətləri sayəsində keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu vurğulayıb. Diqqətə çatdırıb ki, ölkələrimiz arasında ikitərəfli əlaqələr hazırda Türk Dövlətləri Təşkilatı çərçivəsində daha sürətlə inkişaf etməkdədir.

Akademik İsa Həbibbəyli qeyd edib ki, ötən il Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışı ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti nümunəsi kimi qiymətləndirilir. O, Füzuli şəhərində Azərbaycanın və Özbəkistanın dövlət başçılarının iştirakı ilə Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılmasının iki ölkə arasındakı əlaqələrin növbəti mühüm təzahürü olduğunu söyləyib. AMEA rəhbəri, həmçinin Füzuli şəhərindəki həmin orta məktəbdə böyük alim və görkəmli dövlət xadimi Mirzə Uluqbəyin 630 illiyinə həsr olunmuş ilk beynəlxalq elmi konfransda iştirak etdiyini bildirib.

Görkəmli özbək mütəfəkkiri Mirzə Uluqbəyin ömür yolundan, zəngin yaradıcılığından bəhs edən akademik İsa Həbibbəyli ədibin dövrünün görkəmli riyaziyyatçı, astronomu olmaqla elmin, təhsilin inkişafına mühüm töhfələr verdiyini deyib. O, Nəsirəddin Tusi ilə Mirzə Uluqbəy arasındakı oxşar cəhətləri diqqətə çatdırıb, eyni düşüncəyə, amala və ideyalara malik hər iki şəxsiyyətin Türk dünyasına xidmət göstərdiyini söyləyib.

Azərbaycan-Özbəkistan elmi-ədəbi və mədəni əlaqələrinin inkişafında mühüm rolu olan müasir özbək ədəbiyyatının klassiki Maqsud Şeyxzadənin yaradıcılığından da danışan AMEA prezidenti ədibə həsr olunan “Maqsud Şeyxzadə və Azərbaycan” adlı monoqrafiyanın hazırlanmasının önəminə toxunub. O, iki ölkənin görkəmli şəxsiyyətləri ilə bağlı elmi tədqiqatların genişləndirilməsinin vacibliyini qeyd edib.

Akademik İsa Həbibbəyli, həmçinin AMEA-nın Gəncə Bölməsində Əlişir Nəvai Mərkəzinin yaradılması haqqında Daşkənd Özbək Dili və Ədəbiyyatı Universiteti ilə memorandumun imzalandığını xatırladıb. Bu mərkəzin yeni istiqamətlərin müəyyənləşməsinə, birgə tədqiqatların aparılmasına, dost ölkələrimiz arasında ədəbi əlaqələrin möhkəmlənməsinə töhfə verəcəyini bildirib.

Akademiya ilə Özbəkistanın elmi qurumları arasında əlaqələrin son illər daha da inkişaf etdiyini deyən AMEA rəhbəri qardaş ölkənin bir sıra müəssisələri ilə ikitərəfli müqavilələrin imzalandığını söyləyib.

O, AMEA-da özbək ədəbiyyatı klassiklərinin irsinin geniş tədqiq edildiyini diqqətə çatdırıb. Alim özbək dilində “Azərbaycan ədəbiyyatı: Qədimdən bugünədək”, eləcə də Azərbaycan dilində “Özbək ədəbiyyatı: Qədimdən bugünədək” adlı kitabların hazırlanmasının zəruriliyini qeyd edib.

Akademik İsa Həbibbəyli bugünkü konfransın elmi və tarixi əhəmiyyətini önə çəkib, beynəlxalq tədbirin əsas məqsədinin Azərbaycan-Özbəkistan əlaqələrinin dairəsini daha geniş üfüqlərə doğru genişləndirmək və yeni əsərlər meydana qoymaq olduğunu bildirib.

Sonra Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universitetinin professoru Nurbay Cabbarov “Türküstan cədid mətbuatında millət və milliyyət təlqini” mövzusunda məruzəsini təqdim edib.

Tədbirə onlayn qatılan Özbəkistanın Urgənc Dövlət Universitetinin prorektoru Zəfər İbrahimov iştirakçıları salamlayıb. Bildirib ki, eyni soya, ortaq tarixə və mədəniyyətə malik olan Azərbaycan və özbək xalqları arasındakı qardaşlığın kökləri tarixin dərin qatlarına gedib çıxır. O, özbəklərin hər zaman Azərbaycan ədəbiyyatına, mədəniyyətinə böyük maraq göstərdiyini, azərbaycanlı ədiblərin əsərlərindən bəhrələndiyini bildirib, konfransın işinə uğurlar arzulayıb.

Daha sonra Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri şöbəsinin müdiri filologiya elmləri doktoru Almaz Ülvi Binnətova “Aman Matcanın yaradıcılıq etüdləri”, Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin professoru İslom Yoqubov "Poetik təfəkkür və bədii ifadə tərzi: müştərəklik və özünəxaslıq”, Füzulişünaslıq sektorunun müdiri filologiya elmləri doktoru, dosent Ataəmi Mirzəyev “Azərbaycan lirik şeirində Əlişir Nəvai təsirinin təzahür formaları”, Urgənc Dövlət Universitetinin Özbək filologiyası fakültəsinin dekanı professor Qayipov Dilşod “Özbək və Azərbaycan cədidçiliyinin müştərək cəhətləri xüsusunda bəzi mülahizələr”, Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri şöbəsinin baş elmi işçisi filologiya elmləri doktoru Yaşar Qasımbəyli “Fərhad və Şirin” dastanı Azərbaycan ədəbiyyatşünaslığında”, Urgənc Dövlət Universitetinin əməkdaşı Əzəmət Primov “Zəfərnamə” dilindəki ayrım leksikologiyasının Xarəzmin hazırkı oğuz şivələrinə münasibəti haqqında” mövzusunda məruzələrlə çıxış ediblər. Məruzələr ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

Beynəlxalq konfrans aprelin 16-da öz işini başa çatdırıb.



# AMEA rəhbərliyi akademik Zərifə xanım Əliyevanın əziz xatirəsini yad edib

Aprelin 15-də AMEA-nın prezidenti akademik İsa Həbibbəyli və AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın anım günü ilə bağlı Fəxri xiyabanda onun məzarını ziyarət ediblər.

AMEA rəhbərliyi Ümummilli Lider, görkəmli dövlət xadimi Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın məzarları önünə gül dəstələri düzüb, əziz xatirələrini dərin ehtiramla yad ediblər.

# AMEA prezidenti İraq alimləri ilə görüşüb



**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Akademiyanın təşkilatçılığı ilə keçirilən dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransda iştirak edən İraq alimləri ilə görüşüb.**

Görüşdə Azərbaycan-İraq elmi-ədəbi əlaqələrinin tarixindən söz açan akademik İsa Həbibbəyli birgə elmi tədbirlərin əhəmiyyətini diqqətə çatdırıb, elmi əlaqələrin inkişaf perspektivlərindən danışıb.

Ölkə Prezidenti cənab İlham Əliyevin "Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında" Sərəncamının icrası ilə əlaqədar olaraq Akademiyada silsilə tədbirlərin keçirildiyini bildirən AMEA rəhbəri bu məqsədlə İraqda da beynəlxalq elmi konfransın təşkil edilməsi barədə razılıq əldə edildiyini diqqətə çatdırıb.

İraq Strateji Araşdırmalar Mərkəzinin müdiri, İraq-Azərbaycan Dostluq Cəmiyyətinin sədri doktor Mutaz Muhyi Əbdülhəmid və Türkmən Mədəniyyət Mərkəzinin müdiri, "Türkmən eli" jurnalının baş redaktoru doktor Sabah Kərküklü AMEA alimləri ilə sıx əməkdaşlıq qurmaqda, Məhəmməd Füzulinin həyatı və yaradıcılığına dair ortaq layihələrin həyata keçirilməsində maraqlı olduqlarını vurğulayaraq qarşılıqlı elmi əlaqələrin inkişaf perspektivləri barədə söz açıblar.

Görüş zamanı Azərbaycanda İraq ədəbiyyatının, İraqda isə Azərbaycan ədəbiyyatının təbliği məqsədilə tərcümə əsərlərinin, ayrı-ayrı ədəbi şəxsiyyətlərin həyat və yaradıcılığını əhatə edən monoqrafiyaların, eləcə də qarşılıqlı olaraq elmi məqalələrin nəşri məsələləri müzakirə edilib, müvafiq razılıq əldə olunub.

# Tatarıstan EA-nın institut direktoru ilə görüş



**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Tatarıstan Elmlər Akademiyasının (Rusiya Federasiyası) Arxeologiya İnstitutunun direktoru akademik Ayrat Sıtdıkovla görüşüb.**

AMEA-nın elmi istiqamətləri, xüsusilə arxeologiya və antropologiya sahəsində aparılan tədqiqatlar, Azərbaycan arxeologiyasının tarixi, əldə etdiyi nəticələr, yeni yaradılan ekspedisiyalar və onların fəaliyyəti barədə söz açan akademik İsa Həbibbəyli ölkəmizdə bu elm sahəsinin daim diqqət mərkəzində olduğunu bildirib. İşğaldan azad olunmuş ərazilərimizdə böyük miqyaslı arxeoloji qazıntı işlərinə start verildiyini diqqətə çatdıran AMEA rəhbəri artıq ilkin uğurlu elmi nəticələrin əldə edildiyini vurğulayıb. Akademik İsa Həbibbəyli aparılacaq tədqiqatların mühüm əhəmiyyət kəsb etdiyini bildirərək, böyük təcrübəyə malik olan Tatarıstan arxeoloq və antropoloq alimlərinin Azərbaycan arxeoloqları ilə birlikdə Qarabağda birgə tədqiqatlarda iştiraka dəvət edib.

Görüşdə Tatarıstan EA Arxeologiya İnstitutunun direktoru akademik Ayrat Sıtdıkov çıxış edərək, rəhbərlik etdiyi elmi-tədqiqat müəssisəsinin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib, birgə elmi tədqiqatların aparılmasında maraqlı olduqlarını diqqətə çatdırıb, qarşılıqlı elmi bilik və təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə AMEA-nın vitse-prezidenti v.i.e. akademik Gövhər Baxşəliyeva, AMEA Arxeologiya və Antropologiya İnstitutunun direktoru tarix üzrə fəlsəfə doktoru, dosent Fərhad Quliyev, AMEA Rəyasət Heyəti aparatının Xarici əlaqələr və beynəlxalq təşkilatlarla iş şöbəsinin müdiri biologiya üzrə fəlsəfə doktoru, dosent Esmira Əlirzayeva və AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru, dosent Ağahüseyn Şükürov da iştirak ediblər.

# Hər şey Vətən üçün!



**Aprelin 9-da AMEA-nın Əsas binasında müqəddəs Ramazan bayramı münasibətilə şəhid ailələrinin və qazilərin iştirakı ilə "Hər şey Vətən üçün" adlı tədbir keçirilib.**

Tədbir Akademiyanın Rəyasət Heyətinin və Azad Həmkarlar İttifaqının birgə təşkilatçılığı ilə baş tutub.

Əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli tədbiri giriş sözü ilə açaraq, iştirakçıları müqəddəs Ramazan ayı münasibətilə təbrik edib, bu bayramın xalqımız üçün əhəmiyyətindən danışıb. O, Ramazan bayramının ilk dəfə ərazi bütövlüyü və suverenliyi bərqərar olunmuş ölkəmizdə qürurla qeyd edildiyini bildirib. Vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi və qəhrəman Ordumuzun şücaəti sayəsində ölkəmiz böyük Zəfər qazanaraq tarixi ədaləti bərpa edib. AMEA rəhbəri fədakar Vətən övladlarının əziz xatirəsinin qəlbimizdə əbədi yaşayacağını deyib.

Ölkəmizdə şəhid ailələrinə və qazilərə göstərilən dövlət qayğısından danışan akademik İsa Həbibbəyli tarixi Qələbənin şəhidlərimizin canı, qazilərimizin qanı bahasına qazanıldığını vurğulayıb. Qeyd edib ki, ölkəmizdə şəhid ailələrinin, müharibə əlillərinin, veteranların, hərbi qulluqçuların sosial müdafiəsinin təmin edilməsi, onların rifah halının yaxşılaşdırılması və problemlərinin həlli dövlət siyasətinin mühüm tərkib hissəsini təşkil edir.

Böyük Zəfərin ölkənin tarixində yeni bir dövr açdığını deyən alim bildirib ki, 19-20 sentyabr 2023-cü il tarixində həyata keçirilən antiterror tədbirləri ilə Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa olunub. O, Vətən müharibəsindəki tarixi Qələbənin və anti-terror tədbirlərinin Azərbaycanın çoxəsrlik tarixinin nadir hadisəsi olduğunu qeyd edib. AMEA prezidenti vurğulayıb ki, 2023-cü ilin noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümü münasibətilə keçirilən hərbi parad Prezident İlham Əliyevin qalib sərkərdə, qətiyyətli, cəsarətli, uzaqgörən dövlət başçısı olduğunu bir daha dünyaya bəyan etdi.

Akademik İsa Həbibbəyli ölkəmizdə sabitliyin, inkişafın, birliyin və tolerantlığın hökm sürməsinin Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu müdrik siyasət nəticəsində mümkün olduğunu və bu siyasətin hazırda Prezident İlham Əliyevin uğurla davam etdirildiyini vurğulayıb.

O, 2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində İlham Əliyevin inamlı qələbə qazanaraq növbəti müddətə dövlət başçısı seçilməsinin xalqımızın öz liderinə sarsılmaz inamından qaynaqlanmaqla, son iyirmi ildə görülən işlərə, qazanılan uğurlara verilən dəyərin əyani sübutu olduğunu bildirib. Vurğulayıb ki, Azərbaycan xalqı səsini İlham Əliyevə verməklə, Ümummilli Lider Heydər Əliyevin ideyalarına sədaqətini nümayiş etdirdi.

Akademik İsa Həbibbəyli AMEA-nın öz fəaliyyətini Prezident İlham Əliyevin fevralın 14-də Milli Məclisdə təşkil olunmuş andiçmə mərasimindəki proqram xarakterli çıxışından irəli gələn məsələlər üzərində qurduğunu, bu elm ocağında dövlət başçısının elan etdiyi milli prioritetlər və inkişaf strategiyasına uyğun geniş tədqiqatların aparıldığını diqqətə çatdırıb.

Son zamanlar AMEA-da həyata keçirilən yeniləşmə prosesləri barədə də danışan akademik İsa Həbibbəyli elmi tədqiqatların ölkə başçısının təsdiq etdiyi davamlı inkişaf strategiyasına uyğun olaraq yenidən təşkil edildiyini, Akademiyada həm struktur, həm də kadr dəyişikliyi istiqamətində mühüm islahatların aparıldığını söyləyib. O, AR Nazirlər Kabinetinin qərarı ilə AMEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutunun nəzdində Tarix və Etnologiya İnstitutunun, eləcə də Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun bazasında müvafiq olaraq Arxeologiya və Antropologiya İnstitutunun yaradıldığını bildirib. Həmçinin AMEA-nın müxtəlif institutlarında müasir dövrün tələblərinə və çağırışlarına uyğun 20-dən çox yeni şöbənin yaradıldığını, oxşar şöbələrin ləğv edildiyini, eləcə də bir sıra kadr təyinatlarının olduğunu deyib.

Çıxışının sonunda AMEA rəhbəri Azərbaycan alimlərinin hər zaman birmənalı şəkildə Prezident İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasəti dəstəklədiyini, dövlət başçısının ətrafında sıx birləşdiyini və parlaq gələcək üçün birlikdə inamla irəlilədiyini vurğulayıb.

Daha sonra "İnformasiya müharibəsində də qalib gəlmiş Müzəffər Ali Baş Komandan İlham Əliyev" adlı videoçarx nümayiş etdirilib.

Tədbirdə AMEA Azad Həmkarlar İttifaqının sədri s.e.ü.f.d., dosent Sənan Həsənov çıxış edərək müqəddəs Ramazan bayramı ərəfəsində belə bir tədbirin keçirilməsindəki dəstəyə görə AMEA rəhbərliyinə minnətdarlığını bildirib.

AMEA-nın vitse-prezidenti İradə Hüseynova çıxış edərək xalqımızın həmrəylik, sağlıq və mərhəmət bayramı ərəfəsində tədbirin əhəmiyyətindən danışıb, xalqımızın Ali Baş Komandan ətrafında sıx birləşdiyini diqqətə çatdırıb.

Tədbirdə Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılovun Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin çıxışlarından ibarət olan "İnformasiya müharibəsində qələbə - Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyev" adlı kitab iştirakçılara təqdim olunub.

Qazi və şəhid ailələri adından ehtiyatda olan zabit I və II Qarabağ Müharibəsinin iştirakçısı Gəray Əsədov çıxış edərək, ordumuzun Ali Baş Komandan ətrafında sıx birliyindən və özünün döyüş yolundan danışıb.

Həmçinin Vətən müharibəsi iştirakçısı, ehtiyatda olan baş leytenant fəl.ü.f.d., dosent Radif Mustafayev, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun YAP ilk Ərazi təşkilatının sədri fil.e.d. Mərziyyə Nəcəfova, AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının sədri k.ü.f.d. Elmir Babayev, Fəlsəfə və Sosiologiya İnstitutunun Həmkarlar Təşkilatının sədri t.ü.f.d. Asya Əhmədova, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun YAP ilk Ərazi təşkilatının sədri Bəxtiyar Əhmədov çıxış edərək tədbirin elmi, siyasi əhəmiyyətini və yeni reallıqlar baxımından mahiyyətini şərh ediblər. Çıxışlarda Azərbaycan Respublikasının Prezidenti və Birinci vitse-prezidentinin çağırışlarına və xalqımızın çoxəsrlik ənənələrinə uyğun olaraq, vətəndaşlarımızın birlik, həmrəylik, mərhəmət, qayğıkeşlik və çətin anda səfərbər olma sınağından uğurla keçdiyi vurğulanıb.

Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazandığımız Zəfər xalqımızın başını uca edib, işğal altında olan dədə-baba yurdlarımızda Ramazan bayramı qeyd olunur. Şəhidlərimizin, qazilərimizin və ümumilikdə Ordumuzun sayəsində Vətənimizin ərazi bütövlüyü təmin olunub. Çıxış edənlər şəhid və qazi ailələrinin hər zaman diqqət mərkəzində olmasından danışıb, şəhidlərimizə Allahdan rəhmət, qazilərə cansağlığı arzu ediblər.

# "Naxçıvan fotolarda" adlı fotosərgi



**Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Beynəlxalq Muğam Mərkəzi və "Şərq qapısı" qəzetinin təşkilatçılığı, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə "Naxçıvan fotolarda" adlı fotosərgi açılıb.**

Bakı şəhərindəki Beynəlxalq Muğam Mərkəzində təşkil olunan sərgidə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, mədəniyyət naziri Adil Kərimli, ölkənin ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

Tədbirdə Fuad Nəcəfli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il dekabrın 30-da "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında" imzaladığı Sərəncama əsasən əlamətdar tədbirlərin keçirildiyini diqqətə çatdırıb. Səlahiyyətli nümayəndə vurğulayıb ki, yubiley tədbirləri Naxçıvan şəhəri ilə yanaşı, başqa şəhərlərdə, ölkələrdə də geniş şəkildə qeyd olunur. "Naxçıvan fotolarda" sərgisi mart ayında Türkiyə Cümhuriyyətinin İğdır şəhərində də açılıb. Aprel ayının əvvəllərində isə Türkiyənin Kayseri şəhərində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin kollektivinin iştirakı ilə muxtar respublikanın 100 illik yubileyi ilə əlaqədar tədbir keçirilib. İl ərzində muxtar respublikanın yubileyi ilə bağlı bu kimi tədbirlərin keçirilməsi davam etdiriləcək.

Bu gün Naxçıvanın artıq öz inkişafının yeni mərhələsinə qədəm qoyduğunu qeyd edən Fuad Nəcəfli bildirib ki, Azərbaycan Respublikası Prezidentinin 5 iyun 2023-cü il tarixli "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamı bu mərhələnin əsas hərəkətverici qüvvəsidir. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi Naxçıvanı yaxın gələcəkdə tamamilə yenilənmiş, iqtisadi cəhətdən kifayət qədər inkişaf edən, cəlbedici bir regiona çevirəcək. Dövlət Proqramı Naxçıvanın bütün istiqamətlərdə kompleks inkişafını nəzərdə tutur.

Onun sözlərinə görə, bugünkü fotosərgi, həmçinin Naxçıvanın turizm potensialının üzə çıxarılması, daha geniş arenada tanıdılması baxımından da xüsusi əhəmiyyət kəsb edir. Səlahiyyətli nümayəndə bu qiyabi tanışlığın hər kəsdə xoş əhval-ruhiyyə yaradacağına inamını ifadə edib.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Milli Məclisin deputatı İsa Həbibbəyli çıxışında dövlətimizin başçısının Naxçıvan Muxtar Respublikasının yaranmasının 100-cü ildönümü ilə bağlı tarixi Sərəncamını Naxçıvan Muxtar Respublikasına dövlət səviyyəsində göstərilən diqqətin, qayğının təzahürü kimi qiymətləndirib. Naxçıvanın taleyində Ulu Öndərin müstəsna roluna diqqət çəkən akademik qeyd edib ki, bu gün Naxçıvan öz 100 illiyini yeni inkişaf mərhələsi ilə qarşılayır. Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasının inkişafına hər zaman böyük həssaslıqla yanaşıb, zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik bu qədim diyarın muxtariyyət tarixinin öyrənilməsinin və təbliğinin zəruriliyini mühüm vəzifə kimi qarşıya qoyub. Bu baxımdan sözügedən Sərəncam Naxçıvanın muxtariyyət tarixinin və inkişaf yolunun müstəqillik ideyaları əsasında azərbaycançılıq mövqeyindən yenidən öyrənilməsinə mühüm stimul verir.

"Şərq qapısı" qəzetinin baş redaktoru Sara Əzimova bildirib ki, qəzetin "Naxçıvan fotolarda" sərgisi muxtar respublikanın 100 illik yubileyinə töhfədir. Sərgidə təqdim olunan fotolar "Şərq qapısı" qəzetinin fotoqrafları tərəfindən çəkilib.

Sonra iştirakçılar sərgi ilə yaxından tanış olublar.

62 fotonun nümayiş olunduğu sərgi böyük marağa qarşılanıb.

Tədbirin bədii hissəsindən əvvəl Ulu Öndər Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların əziz xatirəsi anılıb, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Beynəlxalq Muğam Mərkəzinin solistləri xanəndələr Arzu Əliyeva və Sərxan Bünyadzadənin ifasında konsert proqramı təqdim olunub.

# AMEA-da akademik Fazil Qurbanovun 80 illik yubileyinə həsr olunmuş tədbir



**Aprelin 4-də AMEA-nın Rəyasət Heyəti və AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin birgə təşkilatçılığı ilə Azərbaycanın tanınmış cərrah-alimi, akademik Fazil Səməd oğlu Qurbanovun anadan olmasının 80 illiyinə həsr edilmiş yubiley tədbiri keçirilib.**



Əvvəlcə tədbir iştirakçıları İkinci Fəxri xiyabanda akademik Fazil Qurbanovun məzarını ziyarət edib, xatirəsinə ehtiramlarını bildiriblər.

AMEA-nın Əsas binasında keçirilən tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Azərbaycan Respublikası Milli Məclisinin Səhiyyə Komitəsinin sədri akademik Əhliman Əmiraslanov, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini Nadir Zeynalov, AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova, Biologiya və Tibb Elmləri Bölməsinin alimləri, akademik M.A.Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzinin, Azərbaycan Tibb Universitetinin (ATU) II Cərrahi xəstəliklər kafedrasının, Mərkəzi Klinik Xəstəxananın, Siyasi Kommunikasiyaların Modelləşdirilməsi Mərkəzinin kollektivi və akademik Fazil Qurbanovun ailə üzvləri iştirak ediblər.

Tədbirdən öncə akademik Fazil Qurbanovun həyat və yaradıcılığını əks etdirən nəşrlərdən ibarət sərgiyə baxış keçirilib.

Tədbiri giriş sözü ilə açan akademik İsa Həbibbəyli Azərbaycan tibb elmi və səhiyyəsi sahəsində tanınmış alim, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Fazil Qurbanovun böyük xidmətləri nəzərə alınaraq, AMEA Rəyasət Heyəti tərəfindən alimin 80 illik yubileyi haqqında qərarın qəbul olunduğunu və tədbirin həmin qərar əsasında keçirildiyini söyləyib. Qeyd edib ki, akademik Fazil Qurbanov böyük alim, cərrah, alicənab, parlaq insan idi və Rusiyada yaşayıb fəaliyyət göstərsə də, dövlətinə, xalqına sədaqətli şəxsiyyət kimi qəbul olunurdu.

Akademik Fazil Qurbanovun cərrahiyyənin istər praktiki, istərsə də elmi istiqamətlərinin inkişafında müstəsna xidmətləri olduğunu deyən akademik İsa Həbibbəyli bildirib ki, alimin elmi tədqiqatlarını əsasən, mədə xorasının cərrahi müalicəsi, əməliyyat olunmuş mədədə rekonstruktiv bərpa, qida borusunun xərçəngi, qarın boşluğu orqanlarının cərrahi əməliyyatları və s. təşkil edirdi və onun elmi tədqiqatlarının nəticəsi həm Azərbaycanda, həm də Rusiyada çap olunmuşdur.

AMEA rəhbəri vurğulayıb ki, akademik Fazil Qurbanovun ölkəmizdə tibb elminin inkişafı və yüksəkixtisaslı həkim kadrların hazırlanması üzrə xidmətlərinə görə Azərbaycan Respublikasının "Əməkdar elm xadimi" fəxri adına və "Şöhrət" ordeninə layiq görüldüyünü söyləyib.

Bundan əlavə, alimin Rusiyada Azərbaycan diasporunun təşkilatlanmasında, Azərbaycan və Rusiya cərrah və alimləri arasında körpünün qurulmasında, birgə tədbirlərin həyata keçirilməsində müstəsna xidmətlərindən danışıb.

Çıxışının sonunda akademik Fazil Qurbanovla bağlı xatirələrini bölüşən AMEA prezidenti görkəmli alimin xatirəsinin daim onu sevənlərin və tələbələrinin qəlbində yaşayacağını bildirib.

Milli Məclisin Səhiyyə komitəsinin sədri akademik Əhliman Əmiraslanov isə çıxışında elm, təhsil, səhiyyə və digər sahələrin inkişafında müstəsna xidmətləri olan görkəmli şəxsiyyətlərimizin yubileylərinin keçirilməsi ənənəsinin təqdirəlayiq olduğunu, bu ənənənin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini söyləyib.

Akademik Fazil Qurbanov və onun ailəsi ilə tanışlığının uzun illərə söykəndiyini deyən akademik Əhliman Əmiraslanov alimin SSRİ Tibb Elmləri Akademiyasının Ümumrusiya Elmi-Tədqiqat Mərkəzində cərrahiyyə üzrə doktorantura təhsili alaraq məşhur SSRİ cərrahı akademik Aleksandr Çernousovun məktəbini keçdiyini bildirib. Həmçinin akademik Fazil Qurbanovun yüksəkixtisaslı cərrah kimi yetişməsində akademik Böyükkişi Ağayevin mühüm rolu olduğunu vurğulayıb.

Akademik Əhliman Əmiraslanov bildirib ki, akademik Fazil Qurbanov ölkəsinə, ailəsinə bağlı insan olub və övladlarının da yüksəkixtisaslı peşəkar kadr kimi yetişməsinə çalışıb və bu gün onun övladları şərəflə dövlətimizə, vətəndaşlarımıza xidmət edirlər.

AR səhiyyə nazirinin müavini Nadir Zeynalov isə çıxışında tədbir iştirakçılarını Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevin adından salamlayıb, görkəmli şəxsiyyətlərimizin irsini xalqımızın yaddaşında qoruyub saxlamaq və gələcək nəsillərə çatdırmaq üçün bu cür tədbirlərin mühüm əhəmiyyət kəsb etdiyini söyləyib. Qeyd edib ki, akademik Fazil Qurbanov dövrünün ən qabaqcıl mərkəzində çalışıb, öyrənib, bilik və bacarıqlarını xalqına xərcləyib və özünün böyük məktəbini yaratmaqla hələ də xalqımıza xidmətini davam etdirir.

Yubiley tədbirində çıxış edən AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova bildirib ki, Fazil Qurbanov çox məhsuldar bir alim olub, 280-dən çox elmi əsərin, o cümlədən, 8 monoqrafiyanın, Rusiya və Azərbaycanın ali təhsil müəssisələri üçün hazırlanmış 4 dərslik və metodiki vəsaitin, 13 ixtira və 7 səmərələşdirici təklifin müəllifi olub. Alimin əsərləri çoxillik fundamental və kliniki tədqiqatların mühüm nəticələrini əks etdirməklə, xüsusi sanballı ilə seçilib və hər biri tibb elminə dəyərli töhfələr hesab edilir.

O qeyd edib ki, elmi kadr hazırlığında da Fazil müəllimin gördüyü işlər təqdirəlayiqdir və akademikin məsləhətçiliyi və elmi rəhbərliyi ilə 30-a yaxın doktorluq və namizədlik dissertasiyası müdafiə olunub. Onun yaratdığı elmi məktəbin davamçıları sırasında həm Azərbaycanda, həm MDB məkanında, həm də digər xarici ölkələrdə yaxşı tanınan, insanların sağlamlığının keşiyində dayanmaqla, həmçinin ölkəmizə şöhrət gətirən onlarla alim və təbib vardır.

Akademik İradə Hüseynova vurğulayıb ki, alim fəaliyyəti dövründə cərrahi müalicədən sonra kardiospazm residivləri zamanı pnevmatik kardiodilyatasiyanın yaranma mexanizmlərini araşdırmış, xərçəng və qida borusunun xoşxassəli strikturları zamanı birmomentli ezofaqoplastikanın üstünlüklərini göstərmişdir. Həmçinin həzm traktının xoşxassəli və bədxassəli xəstəliklərinin cərrahi və konservativ müalicəsində bir sıra yeni metodları uğurla tətbiq etmişdir.

Sonra akademik M.A.Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzinin baş elmi işçisi tibb elmləri doktoru, professor Zərraf Şirinov "Akademik Fazil Qurbanovun elmi, elmi-təşkilati və pedaqoji fəaliyyəti" mövzusunda məruzə ilə çıxış edib.

Bundan əlavə, akademik M.A.Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzinin direktoru tibb elmləri doktoru, professor Rauf Ağayev, ATU-nun II Cərrahi xəstəliklər kafedrasının professoru, tibb elmləri doktoru Surxay Hadıyev, Mərkəzi Klinik Xəstəxananın baş həkiminin müavini tibb elmləri doktoru Zaur Xəlilov və Siyasi Kommunikasiyaların Modelləşdirilməsi Mərkəzinin rəhbəri texnika elmləri doktoru, professor Kamran Rüstəmov çıxış edərək akademik Fazil Qurbanovun həkim-cərrah fəaliyyətindən danışıb, onun yüksək insani keyfiyyətə malik olduğunu deyiblər.

Sonda akademik Fazil Qurbanovun ailə üzvləri adından qızı, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun direktoru tibb elmləri doktoru, professor Cəmilə Qurbanova çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

# AMEA prezidentindən yeni təyinat

**AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin sərəncamı ilə filologiya elmləri doktoru, dosent Sərxan Xavəri AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin müdiri vəzifəsinə təyin olunub.**



Sərxan Abbas oğlu Xavəri 26 may 1973-cü ildə Goranboy rayonunda anadan olub. 1995-ci ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib. 2000-ci ildə "XIII-XVI əsrlər Azərbaycan təsəvvüf ədəbiyyatı: təşəkkülü, təkamülü və inkişaf istiqamətləri" mövzusunda filologiya üzrə fəlsəfə doktoru, 2023-cü ildə "Azərbaycan milli mədəniyyət sistemində folklorun funksional strukturu və tipologiyası" mövzusunda filologiya elmləri doktoru dissertasiyaları müdafiə edib.

1998-ci ildən Azərbaycan Milli Elmlər Akademiyası sistemində çalışan Sərxan Xavəri 2006-cı ildən indiyədək AMEA-nın Rəyasət Heyətinin elmi katibi vəzifəsində fəaliyyətini davam etdirib.

Sərxan Xavəri yerli və xarici mətbuatda, o cümlədən indekslənmiş beynəlxalq nüfuza malik elmi jurnallarda 50-yə yaxın elmi məqalənin, 4 monoqrafiyanın müəllifidir.

Filologiya elmləri doktoru Sərxan Xavəri AMEA Rəyasət Heyətinin Fəxri fərmanı, Qarabağ mövzusunda apardığı tədqiqatlara və Uğurlu elmi məruzəyə görə Fəxri diplomlarla təltif edilib.

Ailəlidir, iki övladı var.

# AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin yeni müdiri kollektivə təqdim edilib

**AMEA prezidenti akademik İsa Həbibbəylinin sərəncamı ilə Akademiyanın Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin müdiri vəzifəsinə təyin olunmuş filologiya elmləri doktoru, dosent Sərxan Xavəri kollektivə təqdim edilib.**

Tədbirdə AMEA prezidenti akademik İsa Həbibbəyli çıxış edərək filologiya elmləri doktoru, dosent Sərxan Xavərinin otuz ilə yaxındır ki, Akademiya sistemində çalışdığını bildirərək, onu təcrübəli və bacarıqlı əməkdaş kimi səciyyələndirib. AMEA rəhbəri yeni təyin olunmuş şöbə müdirinə tövsiyə və tapşırıqlarını verib, kollektivə uğurlar arzulayıb.

Sonra Elm və təhsil şöbəsinin müdiri Sərxan Xavəri çıxış edərək ona göstərilən yüksək etimada görə AMEA rəhbərliyinə minnətdarlığını bildirib, ona tapşırılan işin öhdəsindən məsuliyyətlə gələcəyinə söz verib.

Tədbirdə AMEA-nın birinci vitse-prezidenti v.i.e. akademik Arif Həşimov, AMEA Rəyasət Heyəti aparatının İnsan resursları şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru Aynur Mahmud və AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov da iştirak ediblər.

Qeyd edək ki, AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin müdiri texnika üzrə fəlsəfə doktoru, dosent Hüseyn Hüseynov bu günlərdə Akademiyanın Mərkəzi Elmi Kitabxanasının direktoru vəzifəsinə təyin edilib.

# Yaşıl enerji və yaşıl iqtisadiyyat problemləri

**AMEA Rəyasət Heyəti və AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun birgə təşkilatçılığı ilə institutun Kiçik akt zalında "Yaşıl enerji və yaşıl iqtisadiyyat problemləri" mövzusunda beynəlxalq iştirakla elmi seminar keçirilib.**



Cəmiyyətin inkişafında yaşıl dünyanın kosmik rolu, yaşıl enerji və ətraf mühit problemləri, bərpa olunan enerji sahəsində texnoloji trendlər, bioyanacaq və hidrogen iqtisadiyyatı, bərpa olunan enerji texnologiyaları və onların cəmiyyətin sosial-iqtisadi inkişafına təsiri kimi mühüm məsələlərin müzakirəyə çıxarıldığı seminarı giriş sözü ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 dekabr 2023-cü il tarixli Sərəncamı ilə 2024-cü ilin ölkədə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunduğuna diqqət çəkib. AMEA-nın prezidenti bildirib ki, artıq bu istiqamətdə bir sıra tədbirlərin, o cümlədən martın 1-də AMEA Rəyasət Heyəti və AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun birgə təşkilatçılığı ilə "Yaşıl dünyamızı qoruyaq", aprelin 4-də isə AMEA, AR ETN Fizika İnstitutu və Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunun birgə təşkilatçılığı ilə "Yaşıl artım və dayanıqlı inkişaf" mövzularında konfranslar keçirilib. Bugünkü seminar da bu istiqamətdə həyata keçirilən növbəti mühüm tədbirdir. Ətraf mühitin sağlamlaşdırılmasının Azərbaycanda dövlət siyasətinin prioritetlərindən olduğunu qeyd edən akademik İsa Həbibbəyli BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi qlobal tədbirin ölkəmizdə keçirilməsinin böyük əhəmiyyətindən danışıb. AMEA-nın prezidenti qeyd edib ki, tarixi hadisə olacaq COP29-un Bakıda keçirilmək qərarı Azərbaycanın və onun liderinin şəxsi nüfuzunun dünya birliyi tərəfindən təsdiqinin nəticəsidir.

Sonra açılış nitqləri ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini AMEA-nın müxbir üzvü Əminağa Sadıqov, AMEA-nın vitse-prezidenti akademik Dilqəm Tağıyev, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müşaviri Rasim Səttar-zadə çıxış edərək "yaşıl dünya", iqlim dəyişiklikləri, "yaşıl enerji", "yaşıl iqtisadiyyat" məsələləri ilə bağlı dəyərli fikirlərini bildirib, seminarın işinə uğurlar arzulayıblar.

Daha sonra çıxış edən AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova Yer kürəsinin yaşıl örtüyünün, ekoloji tarazlığın və biomüxtəlifliyin qorunub saxlanılmasının müasir dövrün ən aktual qlobal problemlərindən biri olduğunu bildirib. Qeyd edib ki, bu problemin həllinə istiqamətlənmiş addımların atılması, bu əsasda atmosferə karbon emissiyasının azalmasına imkan verən "Yaşıl enerji"dən daha çox istifadəyə keçid bu gün Azərbaycanda dövlət siyasətinin mühüm istiqamətlərindəndir. Bu siyasətin əsasını Azərbaycana rəhbərlik etdiyi və SSRİ rəhbərliyində təmsil olunduğu dövrlərdə Ulu Öndər Heydər Əliyev qoyub, cənab Prezident İlham Əliyev onu davam və daha da inkişaf etdirib.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edildiyinə diqqət çəkən natiq həmin prioritetə uyğun olaraq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, ekoloji təmiz və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətlərində dövlət orqanları, Heydər Əliyev Fondu, İDEA təşkilatı tərəfindən geniş həcmdə işlərin aparıldığını qeyd edib. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycanda bərpa olunan enerji (elektrik) istehsalının payının 2030-cu ilə qədər 30%-ə çatdırılması hədəflənir. Azərbaycanda 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının emissiyalarının 35%, 2050-ci ilə qədər isə 40% azaldılması qarşıya məqsəd kimi qoyulmuşdur.

Akademik İradə Hüseynova qeyd edib ki, dünyada mineral yanacaq ehtiyatlarının azalması fonunda bəşəriyyətin ekoloji təmiz, dayanıqlı enerjiyə ehtiyacı artmaqdadır. Bu rolu bərpa olunan enerji - günəş, külək, axar su və dəniz dalğalarının enerjisi, geotermal enerji, bioenerji, hidrogen və s.-nin oynaması mümkündür ki, bu da enerji təhlükəsizliyini və deməli, "yaşıl iqtisadiyyat"a keçidi təmin edir.

Akademik İradə Hüseynova COP29-la yanaşı, Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası, Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası kimi mötəbər tədbirlərin də 2024-cü ilin noyabr ayında ölkəmizdə keçiriləcəyinə diqqət çəkib.

Natiq "Yaşıl enerji və yaşıl iqtisadiyyat problemləri" mövzusunda bugünkü elmi seminarın məqsədinin müvafiq sahə mütəxəssislərini vahid platformada birləşdirməklə, son illərdə ekoloji təmiz energetik texnologiyaların yaradılması və tətbiqi sahəsində əldə edilən elmi-metodiki və texniki uğurların, yeni yanaşmaların nümayişi, təcrübə mübadiləsi, problemin nəzəri-fundamental və elmi-praktiki aspektlərinin və gələcək əməkdaşlıq perspektivlərinin müzakirəsindən ibarət olduğunu bildirib.

Günəş enerjisindən ən optimal istifadənin dünyada canlı aləmin əsası olan mürəkkəb fotosintez prosesi ilə bağlı olduğunu qeyd edən akademik İradə Hüseynova fotosintezin və fototənəffüzün tədqiqi istiqamətində Azərbaycanda böyük alim və ictimai-siyasi xadim, akademik Cəlal Əliyev tərəfindən əldə edilmiş mühüm nailiyyətlərdən, yaratdığı və hazırda daim inkişaf edən elmi məktəbdən danışıb. Vitse-prezident akademik Cəlal Əliyevin fototənəffüz prosesi ilə bağlı irəli sürdüyü konsepsiyanın dünya elmi ictimaiyyəti tərəfindən qəbul edildiyini xüsusi qeyd edib.

Sonra seminarın proqramına uyğun olaraq, Türkiyənin 9 Eylül Universiteti Fənn Fakültəsi Kimya kafedrasının rəhbəri, Prof.Dr. Levent Çavaşın təqdimatında "Tullantı yosunlarından hidrogenin alınması üzrə tədqiqatlar və onların mühüm nəticələri", AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun Fotobioenergetika laboratoriyasının müdiri biologiya elmləri doktoru Yaşar Feyziyevin təqdimatında "Fotosintez və yaşıl enerji" mövzularında elmi məruzələr dinlənilib. Sonra məruzəçilər seminar iştirakçılarının çoxsaylı suallarını cavablandırıblar.

Seminarda aparılan geniş müzakirələrdə AR ETN Akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru akademik Vaqif Abbasov, Bakı Dövlət Universitetinin kafedra müdiri biologiya elmləri doktoru, professor Rövşən Xəlilov, universitetin Üzvi kimya kafedrasının professoru kimya elmləri doktoru Afət Hüseynova, AR ETN Radiasiya Problemləri İnstitutunun baş direktoru AMEA-nın müxbir üzvü İslam Mustafayev, həmin institutun laboratoriya müdiri fizika üzrə fəlsəfə doktoru Oqtay Salamov, MBBİ-nin icraçı direktoru biologiya üzrə fəlsəfə doktoru, dosent Ələmdar Məmmədov, institutun baş elmi işçisi biologiya elmləri doktoru Şahniyar Bayramov, aparıcı elmi işçi biologiya üzrə fəlsəfə doktoru, dosent Samirə Rüstəmova, böyük elmi işçi biologiya üzrə fəlsəfə doktoru Səmra Mirzəyeva və b. iştirak ediblər.

Seminarın işinə yekun vuran akademik İradə Hüseynova ölkədə "yaşıl dünya", "yaşıl enerji", "yaşıl iqtisadiyyat", fotosintez prosesi, iqlim dəyişiklikləri və s. ilə bağlı elmi tədqiqatların gücləndirilməsinin və bu istiqamətlərə elmi qurumlar tərəfindən diqqətin artırılmasının vacib olduğunu bildirib.

# Yaşıl artım və dayanıqlı inkişaf

**AMEA-nın Mərkəzi Elmi Kitabxanasında "Yaşıl artım və dayanıqlı inkişaf" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**



Tədbir AMEA, AR Elm və Təhsil Nazirliyinin Fizika İnstitutu və akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunun birgə təşkilatçılığı ilə baş tutub.

Konfransı giriş sözü ilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq ölkə başçısının müvafiq Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edildiyini xatırladıb. O, Azərbaycanda ekoloji tarazlığın və ətraf mühitin qorunması, alternativ enerji mənbələrindən səmərəli istifadə, eləcə də iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində görülən işlərdən danışıb.

Dövlət başçısının sərəncamları ilə Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan Muxtar Respublikasının yaşıl enerji zonası elan edildiyini deyən AMEA rəhbəri bu bölgələrdə bərpaolunan enerji istehsalı üçün geniş imkanların olduğunu diqqətə çatdırıb. Vurğulayıb ki, Prezident İlham Əliyev fəaliyyəti dövründə Azərbaycanın nəinki qüdrətli enerji dövləti kimi inkişafına nail olub, eyni zamanda, qətiyyəti, dəmir iradəsi sayəsində ölkəmizin ərazi bütövlüyünü, suverenliyini tam təmin edərək liderliyi ilə yeni tarixi reallıqlar yaradıb.

Akademik İsa Həbibbəyli BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP 29) ölkəmizdə keçiriləcəyini bildirərək, belə bir mötəbər tədbirin Bakıda baş tutmasının qlobal ictimaiyyətin Azərbaycana yüksək etimadı ilə yanaşı, həm də respublikamızda bu sahədə aparılan mühüm xidmətlərlə bağlı olduğunu vurğulayıb. Qeyd edib ki, COP29 dünyada "yaşıl enerji"nin inkişafına və ətraf mühitin qorunmasına böyük töhfə verən tədbir olacaq.

"Hazırda "yaşıl iqtisadiyyat" termini qlobal səviyyədə bəşəriyyətin inkişafının ana xətlərindən birini ifadə edir", - deyən AMEA prezidenti bildirib ki, "yaşıl dünya", iqlim dəyişiklikləri, "yaşıl enerji" kimi anlayışlar yeni dövrün çağırışlarına uyğun müasir elmi istiqamətlərdə tədqiqatlar aparmağı alimlərimizin qarşısına məqsəd qoyur. O, ötən ay AMEA Rəyasət Heyəti və Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun birgə təşkilatçılığı ilə "Yaşıl dünyamızı qoruyaq" mövzusunda keçirilən konfransda bu məsələlərlə bağlı geniş müzakirələrin aparıldığını diqqətə çatdırıb. Akademik İsa Həbibbəyli COP29-da AMEA alimlərinin elmi məruzələrlə çıxışının önəmini qeyd edib.

Sonra BMT-nin Ətraf Mühit Proqramının Avropa regionu üzrə koordinatoru Mahir Əliyev "Yaşıl dünya: yeni inkişaf perspektivləri" mövzusunda məruzəsini təqdim edib.

Müstəqillik dövründə Azərbaycanın bir çox tarixi əhəmiyyətli beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini deyən məruzəçi qeyd edib ki, COP29-un 2024-cü ildə ölkəmizdə keçirilməsi Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun göstəricisidir.

Diqqətə çatdırılıb ki, COP (Conference of the Parties; Tərəflərin Konfransı) 1995-ci ilin mart ayında Almaniyanın Berlin şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası üzərində ali qərarların verilməsi üçün yaradılmış qurumdur. COP-un missiyası konvensiyadan irəli gələn tələblərin, tövsiyələrin icrasına nəzarət etməkdir. Bu tələblər əsasən qlobal istiləşmə tempini səngitmək, qlobal istiləşməyə məruz qalan ərazilərin adaptasiyasına dəstək olmaq və 2050-ci ilə qədər sıfır emissiyaya nail olmaqdır.

Mahir Əliyev COP29-un ətraf mühitin mühafizəsi, ekologiya, "yaşıl enerji" sahələrində ixtisaslaşan qurumların təmsilçilərinin qatıldığı mötəbər tədbir olduğunu vurğulayıb. O, tədbirin "Yaşıl dünya naminə həmrəylik ili"ndə keçirilməsi nəticəsində Azərbaycanın özünün ən müsbət tərəflərini dünyaya çatdıra biləcəyini deyib.

Tədbirdə AMEA-nın birinci vitse-prezidenti v.i.e. akademik Arif Həşimov, Milli Məclisin Səhiyyə Komitəsinin sədri akademik Əhliman Əmiraslanov, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov, Elm və Təhsil Nazirliyinin İdarəetmə Sistemləri İnstitutunun baş direktoru akademik Əli Abbasov, Elm və Təhsil Nazirliyinin Neft və Qaz İnstitutunun baş direktoru akademik Fəxrəddin Qədirov, Mingəçevir Dövlət Universitetinin rektoru i.ü.f.d. Şahin Bayramov çıxış edərək tədbirin əhəmiyyətini qeyd ediblər.

Bildirilib ki, COP29-un Bakıda keçirilməsi qərarı, həm də Azərbaycanın "yaşıl enerji" siyasətinə qlobal dəstəyi ifadə edir. Buna uyğun olaraq, ötən il dekabrın 25-də Prezident İlham Əliyev iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması barədə" Sərəncam imzalayıb. Sərəncamda Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsi və həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi kimi məsələlər qeyd olunub. Bundan başqa, sənəddə rəqabətqabiliyyətli iqtisadiyyatın dayanıqlı inkişafı, ölkənin təmiz ətraf mühit və yaşıl artım ölkəsinə çevrilməsi kimi əsas prioritetlər nəzərdə tutulur.

Sonda mövzu ətrafında müzakirələr aparılıb.

# Füzulidə böyük alim və görkəmli dövlət xadimi Mirzə Uluqbəyin 630 illiyinə həsr olunmuş ilk beynəlxalq elmi konfrans



**Füzuli şəhərində böyük alim və görkəmli dövlət xadimi Mirzə Uluqbəyin 630 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans keçirilib.**

Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbdə təşkil olunan konfransda AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Özbəkistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı Eldar Seyidov, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri şöbəsinin müdiri filologiya elmləri doktoru Almaz Ülvi Binnətova, Qarabağ Regional Təhsil İdarəsinin nümayəndələri, məktəb direktoru Həcər Mahmudova və müəllim kollektivi iştirak edirlər.

Tədbirdə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli tarixi soykökə, dilə, mədəniyyətə malik Azərbaycan-Özbəkistan əlaqələrinin son illərdə dövlət başçılarımızın sıx dostluq və qardaşlıq münasibətləri sayəsində özünün ən yüksək dövrünü yaşadığını bildirib. Diqqətə çatdırıb ki, ölkələrimiz arasında ikitərəfli əlaqələr bu gün Türk Dövlətləri Təşkilatı çərçivəsində sürətlə inkişaf etməkdədir.

AMEA rəhbəri ötən il Füzuli şəhərində Prezident İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılmasının Azərbaycan-Özbəkistan dostluğunun, qardaşlığının və əlaqələrinin növbəti mühüm təzahürü olduğunu söyləyib.

Akademik İsa Həbibbəyli dövlətlərimiz arasında bir çox sahədə olduğu kimi, Özbəkistanın elm və ali təhsil müəssisələri ilə də sıx əlaqələrin qurulduğunu bildirib.

Qarabağın işğaldan azad edilməsindən sonra elmi və mədəni mühitinin inkişafı istiqamətində də ciddi addımların atıldığını deyən akademik İsa Həbibbəyli "Böyük Qayıdış" hərəkatı çərçivəsində təşkil olunan ilk böyük beynəlxalq elmi konfransın keçirilməsini tarixi hadisə kimi dəyərləndirib: "Hesab edirəm ki, görkəmli dövlət xadimi Mirzə Uluqbəyin 630 illiyinə həsr olunmuş konfrans Qarabağımızın həm quruculuq baxımından, həm də elmi, mədəni baxımından da inkişafı istiqamətində ölkəmizdə aparılan siyasətin həyata keçirilməsi istiqamətində mühüm bir addım, tarixi hadisədir".

Akademik İsa Həbibbəyli bildirib ki, görkəmli özbək mütəfəkkiri və hökmdarı Mirzə Uluqbəy dövrünün görkəmli riyaziyyatçı, astronomu olmaqla elmin, təhsilin inkişafına mühüm töhfələr verib, mədrəsələr, kitabxanalar açmaqla xalqının maariflənməsində önəmli rol oynayıb, tərtib etdiyi ulduz kataloqu ilə adını tarixə böyük alim kimi yazdırıb.

Tədbirdə çıxış edən Özbəkistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov iki ölkə arasında sıx münasibətdən və əlaqələrin inkişafından danışıb. O, Mirzə Uluqbəyin 630 illik yubileyinin gözəl və füsunkar şəhərə çevrilən Füzulidə böyük alim və astronomun adını daşıyan müasir məktəbdə keçirilməsinə görə Azərbaycan Prezidentinin Administrasiyasına, Xarici İşlər Nazirliyinə, Azərbaycan Milli Elmlər Akademiyasına və məktəb rəhbərliyinə dərin təşəkkürünü bildirib.

Elmi konfransda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli "Nizami Gəncəvidən - Əlişir Nəvaiyə və Mirzə Uluqbəyə", Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri filologiya elmləri doktoru Almaz Ülvi Binnətova "Mirzə Uluqbəyin həyatı, elmi xidmətləri və dövlətçilik fəaliyyəti" mövzularında elmi məruzələrlə çıxış ediblər.

Çıxışlardan sonra Özbəkistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov özbək dilinə tərcümə olunmuş 100 cildlik "Türk ədəbiyyatı inciləri" toplusunu məktəbin kitabxanasına hədiyyə edib.

AMEA prezidenti akademik İsa Həbibbəyli eyni zamanda AMEA Rəyasət Heyəti və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən nəşr olunmuş bir çox kitabları məktəbin kitabxanasına hədiyyə edib. Kitablar arasında "Azərbaycan ədəbiyyatı tarixi" oncildliyi, Molla Nəsrəddin ensiklopediyası və s. kimi fundamental əsərlər vardır.

Sonda qonaqlar məktəbdə yaradılmış şəraitlə tanış olublar.

Beynəlxalq konfransın iştirakçıları yolüstü Füzuli şəhəri ətrafında AMEA Arxeologiya və Antropolgiya İnstitutu tərəfindən arxeoloji qazıntılar aparılan kurqanlarla tanış olublar.

# Akademiyada özbək ədəbiyyatı tarixinə dair monoqrafiya hazırlanır

**AMEA-da özbək ədəbiyyatı tarixinə dair monoqrafik tədqiqat əsərinin nəşr edilməsi barədə qərar qəbul edilib.**



AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin rəhbərliyi ilə hazırlanacaq monoqrafiyada özbək ədəbiyyatının qədim tarixi, formalaşması, inkişaf mərhələləri və əsas yaradıcıları barədə tədqiqatlar öz əksini tapacaqdır. Monoqrafiyaya dair materialların toplanılması, sistemləşdirilməsi və nəşrə hazırlanması Azərbaycan tərəfdən Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi filologiya elmləri doktoru Yaşar Qasımbəyliyə, Özbəkistandan isə Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universitetinin professoru Nurbay Cabbarova tapşırılıb.

Azərbaycan-Özbəkistan elmi əlaqələrinə mühüm töhfə olacaq monoqrafik tədqiqat əsərinin "Elm" nəşriyyatında çap edilməsi nəzərdə tutulub.

# AMEA Biologiya və Tibb Elmləri Bölməsinin Ümumi iclası





**AMEA Biologiya və Tibb Elmləri Bölməsinin hibrid formada Ümumi iclası keçirilib. Bölmənin xaricdə və regionlarda çalışan üzvləri toplantıya Zoom proqramı üzərindən qoşulublar.**

Öncə bölmənin rəhbəri, AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova iştirakçıları gündəliklə tanış edib, daha sonra "Elm günü" ilə əlaqədar olaraq AMEA-nın Fəxri fərmanları, diplomları və təşəkkürnamələri ilə, eləcə də "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə mükafatlandırılan alimləri, bölmə üzvlərini bir daha təbrik edib.

Gündəlikdə duran birinci məsələ 23-24 may 2024-cü il tarixlərində keçirilməsi planlaşdırılan "Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda elmi-praktiki konfransla bağlı olub. Belə bir tədbirin "Yaşıl dünya naminə həmrəylik ili"nə və Bakıda keçiriləcək COP29-a hazırlığa töhfə vermək baxımından mühüm əhəmiyyətinə diqqət çəkən akademik İradə Hüseynova alimləri və elmi tədqiqat müəssisələrini konfransda fəal iştiraka çağırıb.

Sonrakı müzakirələrdə akademik Qərib Məmmədov, AMEA-nın müxbir üzvləri Novruz Quliyev, Zeynal Əkpərov, Pənah Muradov, Əlövsət Quliyev, AR ETN Zoologiya İnstitutunun direktoru v.i.e., aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Əlləddin Eyvazov çıxış edərək konfransın yüksək səviyyədə təşkili istiqamətində təkliflərini səsləndiriblər.

Sonra alternativ olunan enerji mənbələri, o cümlədən "yaşıl enerji" üzrə tədqiqatlar barədə məsələ müzakirəyə çıxarılıb.

AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun Fotobioenergetika laboratoriyasının müdiri biologiya elmləri doktoru Yaşar Feyziyev "yaşıl enerji", fotosintez və süni fotosintez, hidrogenin alınması, çevrilməsi, saxlanması, alternativ enerji mənbələrindən istifadə və bu sahədə əhali arasında təbliğat işinin vacibliyi, işğaldan azad edilmiş ərazilərdə günəş işığından alınmış elektrik enerjisinin toplanması, daşınması, ixracı və s. bu kimi məsələlər ətrafında mövcud biliklər, aparılan tədqiqatlar, gələcək perspektivlər haqqında danışıb, iştirakçıların çoxsaylı suallarını cavablandırıb.

Müzakirələrdə akademik Qərib Məmmədov, AMEA-nın müxbir üzvləri Pənah Muradov, Tərlan Məmmədov, Novruz Quliyev, İlham Şahmuradov, biologiya elmləri doktoru, professor Səftər Süleymanov və b. çıxış ediblər. Müzakirələrə yekun vuran akademik İradə Hüseynova bütün qüvvələri səfərbər etməklə təbiətə zərər vurmadan alternativ enerji istehsalı problemləri üzrə müvafiq tədqiqatları gücləndirməyin vacibliyini xüsusi vurğulayaraq, elmi tədqiqat müəssisələrini birgə layihənin hazırlanmasına və təqdim olunmasına çağırıb.

Daha sonra AR Nazirlər Kabinetinin Bioloji Silahlar üzrə Konvensiyanın İmplementasiyası üzrə Dəstək Bölməsinə hesabat təqdim edilməsi haqqında məktubu, yenə də Nazirlər Kabinetinin AR Kənd Təsərrüfatı Nazirliyi ilə Mərakeş və İordaniya Haşimilər Krallığının, eləcə də Moldova, Rumıniya və Qazaxıstan respublikalarının Kənd Təsərrüfatı nazirlikləri arasında aqrar sahədə əməkdaşlıq haqqında Saziş layihələrinə rəy təqdim olunması barədə məktubu ilə bağlı məsələlər müzakirə edilib, müvafiq sahə mütəxəssislərinə hesabat və rəyin hazırlanması üzrə tapşırıqlar verilib.

İclasda "Elm günü" ilə əlaqədar bir qrup alim AMEA Biologiya və Tibb Elmləri Bölməsinin Fəxri fərmanı və Təşəkkürnaməsi ilə təltif edilib.

# Çində Azərbaycan dili virtual formada tədris olunacaq

**Çinin nüfuzlu ali təhsil ocaqlarından olan Pekin Xarici Dillər Universitetinin (PXDU) təşəbbüsü ilə yaradılan Çin Xarici Dillərin Tədrisi Alyansının (MOOC) xarici dillərin onlayn tədrisi platforması çərçivəsində əcnəbi dillərin virtual formada tədrisi layihəsi icra olunur.**



Layihənin məqsədi əcnəbi dilləri və mədəniyyətləri öyrənmək istəyən çinlilərə müasir texnologiyaların imkanları sayəsində əlverişli imkan yaratmaqdır. Belə ki, harada olmasından asılı olmayaraq, internet vasitəsilə PXDU-nun xarici dillərin onlayn tədrisi platformasına daxil olan çinlilər virtual dərslər vasitəsilə müxtəlif dilləri, o cümlədən Azərbaycan dilini başlanğıc mərhələdə öyrənə biləcəklər. İlkin mərhələdə 20 xarici dil, o cümlədən Azərbaycan dili üzrə virtual dərslər platformaya yüklənəcək. Hazırda PXDU-nun xarici dillərin tədrisi və tədqiqi nəşriyyatında Azərbaycan dilinin onlayn dərslərinin çəkilişləri davam edir. Dünyada xarici dillərin tədrisi istiqamətində öncül ali təhsil ocaqlarından olan PXDU-nun həyata keçirdiyi bu layihə Çində bir ilk olmaqla yanaşı, kütləviliyi ilə diqqət çəkir.

Universitetin xarici dillərin tədrisi və tədqiqi nəşriyyatının direktoru Cou Siaobay bildirib ki, xarici dillərin onlayn tədrisi platformasından xarici dilləri öyrənmək istəyənlər, eləcə də xarici ölkələrin mədəniyyəti ilə tanış olmaq istəyənlər pulsuz yararlana bilərlər. Hazırda 14 dil üzrə 500 dərs platformada istifadəyə verilib. Azərbaycan dili 15-ci dil olacaq. Çin üzrə 1000-dən çox universitetdən 4 milyondan çox tələbə platformanın dərslərindən istifadə edib.

Virtual Azərbaycan dili dərsini tədris edən Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili kafedrasının müdiri filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev bildirib ki, 12 dərsin hər biri müxtəlif hissələrdən ibarət olur. Dərslərdə qrammatik qaydalarla yanaşı, yeni sözlər, dildə daha çox istifadə olunan söz birləşmələri öyrədilir, qısa dialoqlar, mətnlər təqdim olunur. Hər dərsin sonunda Azərbaycan mədəniyyəti, o cümlədən ədəbiyyatı, musiqisi, xalçaçılıq sənəti haqqında bilgi verilir.

Tədris dövründə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli, Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru professor Sevinc Əliyeva və başqaları Azərbaycan dili kafedrasında olub, tələbələrə mühazirə oxuyublar.

# Beynəlxalq dəyirmi masa



**Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) "Azərbaycan-Rusiya münasibətləri Cənubi Qafqazda sülh və sabitlik faktoru kimi" mövzusunda beynəlxalq dəyirmi masa təşkil edilib.**

Dəyirmi masa AMEA, Bakıdakı Rusiya Evi və Rusiya Dövlət Humanitar Universitetinin (RDHU) birgə təşkilatçılığı ilə keçirilib.

RDHU-nun Postsovet xarici kafedrasının müdiri Aleksandr Quşşinin moderatoru olduğu tədbir giriş nitqləri ilə başlayıb.

AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva Azərbaycanla Rusiya arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafından danışaraq, humanitar sahədə iki ölkəni onilliklər boyu birləşdirən məsələləri, o cümlədən ölkəmizin bir sıra ali və orta məktəblərində rus dilində tədrisi qeyd edib. Akademik G.Baxşəliyeva elmi əməkdaşlıqdan da bəhs edərək, AMEA-nın institutları ilə Rusiyanın elm və ali təhsil müəssisələri arasında son illərdə bağlanan sazişləri xatırladıb və onların icrasından danışıb. AMEA-nın Şərqşünaslıq İnstitutunun Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq (2014), Şərq Əlyazmaları (2017) və Dünya Ədəbiyyatı institutları (2017), Tarix və Etnologiya İnstitutunun Rusiyanın "Voprosı istorii" jurnalı (2019), Fəlsəfə və Sosiologiya İnstitutunun Rusiya (Sankt-Peterburq) Smolnı Universiteti İnnovativ Elm-Tədris Konsorsiumu ilə sazişləri qeyd olunub.

AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun Rusiya EA Fəlsəfə İnstitutu ilə birgə nəşri olan "Mədəniyyətlərin dialoqu və müasir dövrün çağırışları" kitabının Moskvada təqdimatı (2019), Rusiya Fəlsəfə Cəmiyyəti ilə birgə "Nəsiminin poeziyası insana himndir: Şərq və Qərb mənəvi-mədəni dəyərlərin sintezi" mövzusunda beynəlxalq elmi konfransın keçirilməsi (2019), AMEA-nın İctimai Elmlər Bölməsi və Tarix və Etnologiya İnstitutunun birgə təşkilatçılığı ilə Rusiya Yazıçılar İttifaqının üzvü Rudolf İvanovun 90 illiyinə həsr olunmuş elmi konfransın keçirilməsi (2021), Tarix və Etnologiya İnstitutunun fəxri doktoru diplomunun rusiyalı tarixçi və hüquqşünas Oleq Kuznetsova təqdim edilməsi (2019), institutun əməkdaşları tarix üzrə fəlsəfə doktorları Bəxtiyar Həsənov və Ziyad Əmrahovun Rusiyanın Dövlət Arxivi və Rusiya iqtisadiyyat arxivində araşdırma apararaq Qərbi Azərbaycanla bağlı 1948-1953-cü illərə aid topladığı sənədləri çapa təqdim etmələri və digər faktlar nəzərə çatdırılıb.

Bakıdakı Rus Evinin rəhbəri İrek Zinnurov giriş nitqində keçirilən tədbirin əhəmiyyətindən danışaraq, Azərbaycanla Rusiya arasında diplomatik əlaqələrin 1992-ci il aprelin 4-də qurulmasını bildirib və dəyirmi masanın həmin tarixin ildönümündə keçirilməsinin əlamətdar olduğunu qeyd edib.

RDHU-nun prezidenti Avrasiya və Regionlararası Tədqiqatlar İnstitutunun direktoru professor Yefim Pivovar Azərbaycan və Rusiya arasında əməkdaşlığın istiqamətlərindən danışaraq, bu münasibətlərin getdikcə inkişaf edəcəyinə ümidlərini bildirib.

Daha sonra dəyirmi masa iştirakçılarının çıxışları başlanılıb.

Professor Yefim Pivovarın "XX əsrin sonu – XXI əsrin əvvəllərində Rusiya-Azərbaycan münasibətləri. Tarixi-politoloji tədqiqatın bəzi nəticə və vəzifələri" mövzusunda çıxış edib. Rusiyalı alim ölkəsi ilə Azərbaycan arasında əlaqələrin tarixindən bəhs edərək, bu sahədə gələcəkdə görüləcək işlərin perspektivlərinə də toxunub, birgə dərsliklərin çapı, elmi tədqiqatların aparılması və digər tədbirlərin həyata keçirilməsi istiqamətində görülə biləcək işlərdən danışıb.

İrek Zinnurovun "Müasir mərhələdə Rusiya və Azərbaycanın ictimai-siyasi və elmi-tədrisi əməkdaşlığının inkişaf xüsusiyyətləri" mövzusunda çıxışında rəhbərlik etdiyi Bakıdakı Rus Evinin Azərbaycanın paytaxtında və bölgələrində həyata keçirdiyi tədbirlərdən danışıb.

Dəyirmi masada, həmçinin Azərbaycan Texniki Universitetinin İnnovativ İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri iqtisad elmləri doktoru, professor Elşad Məmmədovun "Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi üçün ilkin şərtlərin formalaşdırılması", AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadənin "Elmi əməkdaşlıq və Cənubi Qafqazın yeni geosiyasəti", AMEA-nın Qafqazşünaslıq İnstitutunun şöbə müdiri tarix üzrə fəlsəfə doktoru Günel Musayevanın "Azərbaycan-Rusiya münasibətləri regionda sülh və sabitlik amili kimi", "Vestnik Kafkaza" informasiya-təhlil agentliyinin baş direktorunun müavini Andrey Petrovun "Rusiyanın Azərbaycanla müttəfiqlik münasibətlərinin uzunmüddətliyində maraqları faktorları", İctimai Elmlər Noosfera Akademiyasının birinci vitse-prezidenti texnologiyalar sahəsində fəlsəfə doktoru, professor Heydər İmranovun "Azərbaycan-Rusiya elmi əlaqələri", Rusiya Elmlər Akademiyası Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun Mərkəzi Asiya sektorunun müdiri tarix üzrə fəlsəfə doktoru Stanislav Pritçinin "Müasir mərhələdə Rusiya - Azərbaycan siyasi əlaqələrinin xüsusiyyətləri", Bakı Dövlət Universitetinin kafedra müdiri tarix elmləri doktoru, professor İradə Hüseynovanın "Cənubi Qafqazın regional təhlükəsizliyi problemi Azərbaycan - Rusiya münasibətləri kontekstində", M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin dosenti İsmayıl Ağakişiyevin "Rusiya və Azərbaycanın 1993-2024-cü illərdə iqtisadi və humanitar əməkdaşlığı" mövzusunda və digər çıxışlar dinlənilib.

Tədbirin sonunda çıxışlar ətrafında müzakirələr aparılıb. Professor Yefim Pivovar və akademik Gövhər Baxşəliyeva dəyirmi masaya yekun vuraraq tədbirin çox səmərəli keçdiyini və Azərbaycanla Rusiyanın humanitar sahədə əməkdaşlığının böyük perspektivlərinin olduğunu qeyd ediblər.

# İctimai fəaliyyətlə elmin sintezi

**Fəlsəfə elmləri doktoru, siyasi elmlər üzrə professor Rəna Mirzəzadənin ölkəmizdə qadın hərəkatı fəali, akademik gender diskursunun formalaşmasında danılmaz xidməti olan tədqiqatçılardan biri kimi özünəməxsus yeri vardır.**



Əmək fəaliyyətinə 1978-ci ildə Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda başlayan Rəna Mirzəzadə bu gün AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda siyasətin fəlsəfəsi və sosiologiyası şöbəsinin müdiridir. Rəna xanım elmi fəaliyyətə başladığı ilk dövrdən ictimai fəallığı ilə seçilmişdir. 1989-cu ildə "Gənclərin mənəvi aləminin formalaşmasında şüurlu nizamın rolu" mövzusunda dissertasiya müdafiə edərək, tədqiqat işlərini cəmiyyətin aktual problemlərinin öyrənilməsinə yönəltmişdir. Namizədlik dissertasiyası mövzusunun seçimində, eləcə də uzun müddət AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunda həmkarlar ittifaqı təşkilatına rəhbərlik etməsində bu faktorun əhəmiyyətli rolu olmuşdur.

Rəna Mirzəzadə Azərbaycanda qadın hərəkatı fəallarından, bu sahədə ekspertlərdən biridir. Təsadüfi deyil ki, 1995-ci ildə Pekində keçirilən IV Ümumdünya Qadın Konfransında Azərbaycan nümayəndə heyətinin tərkibində Rəna Mirzəzadə də iştirak etmişdir. Qeyd edim ki, Azərbaycan qadınlarının həmin konfransda iştirakının təşəbbüsçüsü və təşkilatçısı şəxsən ulu öndər Heydər Əliyev olmuşdur.

Azərbaycan qadınının yeni, müstəqil respublika quruculuğunda fəaliyyətinə qayğı və diqqətlə yanaşan Ümummilli liderin təşəbbüsü və dəstəyi ilə 1998-ci il sentyabrın 14-də Bakıda Azərbaycan Qadınlarının I Qurultayı (müstəqillik illərində ilk qurultay) keçirilmişdir. Daha sonra 2003, 2008, 2013, 2018 və 2023-cü illərdə Azərbaycan qadınlarının daha beş qurultayı olmuşdur. Rəna Mirzəzadə qadınların bu ali məclislərinin hər birinin iştirakçısı olmuş və aktual mövzularda məruzələrlə çıxış etmişdir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində İctimai Şuranın sədri, Dini Məsələlər üzrə Dövlət Komitəsində İctimai Şuranın üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü ("Ailə, qadın, uşaq" istiqaməti üzrə) kimi fəaliyyəti onun cəmiyyətin sosial həyatı ilə sıx bağlılığının təzahürüdür.

Rəna xanım AMEA-nın Rəyasət Heyəti və AMEA Azad Həmkarlar İttifaqının birgə təşəbbüsü ilə yaradılan AMEA Qadınlar Şurasının sədridir. Şura alim qadınların sosial aktivliyini koordinasiya edir. AMEA Qadınlar Şurasının təşəbbüsü və təşkilatçılığı ilə önəmli tədbirlər həyata keçirilir, alim qadınların birgə fəaliyyəti təmin olunur. Ənənəvi hal almış belə tədbirlərdən biri BMT Baş Assambleyasının təsis etdiyi "11 Fevral – Elmdə Beynəlxalq Qadınlar və Qızlar Günü" münasibətilə keçirilən konfranslardır. Dünyanın hər yerində bu gündə alim qadınlar, yüksək vəzifəli dövlət rəsmiləri, beynəlxalq təşkilatların nümayəndələri və özəl sektor təmsilçiləri bir araya gələrək dayanıqlı inkişafın iqtisadi çiçəklənmə, sosial ədalət, ətraf mühitlə inteqrasiya kimi məqsədləri ətrafında birgə təşəbbüslə çıxış edirlər. Əsas hədəflər:

– qadın liderliyinin diplomatiya və beynəlxalq əməkdaşlıqda rolunu əks etdirmək;

– dayanıqlı, ədalətli, inklüziv sosial-iqtisadi inkişaf üçün gender məsuliyyəti və insan hüquqları əsaslı müraciət hazırlamaq;

– elmi diplomatiyanın köməyi ilə elmlə cəmiyyəti yaxınlaşdırmaq;

– elm, texnologiya və yaşıl iqtisadi artım arasında qarşılıqlı təsir və asılılığı üzə çıxarmaq;

– əngəlli qadınların milli və beynəlxalq səviyyəli tədbirlərə qatılmasına nail olmaq;

– elm, mədəniyyət və təhsildə qadınların liderliyini dəstəkləmək və sairdir.

AMEA Qadınlar Şurasının təşəbbüsü ilə "Elmdə Beynəlxalq Qadınlar və Qızlar Günü" münasibətilə 2019-cu il fevralın 11-dən ölkəmizdə elmi konfranslar təşkil olunur. "Azərbaycan qadınları elmdə" mövzusunda ilk belə konfrans 2019-cu ildə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında, 2020-ci ildə isə Neft-Kimya Prosesləri İnstitutunda keçirilmişdir.

2021-ci ildən etibarən Dayanıqlı İnkişaf Məqsədləri yönümlü konfranslar AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsi ilə birgə təşkil olunur. "Qadın alimlər COVID 19-la mübarizədə ön sıralarda" mövzusunda onlayn formatda baş tutan konfransın təşkilatçılarından biri də Rəna xanımın təşəbbüsü ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi olmuşdur.

"Bərabərlik, müxtəliflik və inklüzivlik: su bizi birləşdirir" mövzusunda konfrans 2022-ci il fevralın 11-də pandemiya səbəbindən yenə də onlayn formatda baş tutmuşdur.

2023-cü və 2024-cü illərin fevral aylarında "Dayanıqlı İnkişaf Məqsədləri kontekstində qadınların, qızların və elmin rolu", "Qadınlar və qızlar elmi liderlikdə" mövzularında elmi konfranslar AMEA-nın əsas binasında keçirilmişdir. Bu konfranslar alim qadınları ölkənin digər sahə təmsilçiləri ilə görüşdürməklə yanaşı, diqqəti onların problemlərinə də yönəldir.

Rəna Mirzəzadə Azərbaycanda akademik gender diskursunu formalaşdıran tədqiqatçılardan biridir. 1998-ci ildə AMEA Fəlsəfə və Hüquq İnstitutunun sosial fəlsəfə şöbəsində onun təşəbbüsü və rəhbərliyi ilə fəaliyyətə başlayan gender tədqiqatları qrupunun bazasında sonralar yeni şöbə yaradılmışdır. Respublikada gender tədqiqatları sahəsində ilkin akademik işlər həyata keçirilmiş, bu sahədə ixtisaslı kadr hazırlığına başlanılmışdır. Alimin gender tədqiqatlarına həsr olunmuş "Gender: fəlsəfi, tarixi və siyasi-hüquqi istiqamətlər" mövzusunda dissertasiyası bu sahədə ilk elmlər doktoru işidir.

Rəna xanım 1998-ci ildə gender tədqiqatlarına həsr olunmuş ilk respublika konfransının, eləcə də "Gender. Təhsil. Sülh mədəniyyəti" mövzusunda ikinci elmi-praktik konfransın təşəbbüsçüsü və təşkilatçılarından biri olmuşdur. Gender bərabərliyi ideyalarını populyarlaşdırmaq üçün QHT-lər, tələbələr, müəllimlər və başqa qruplar üçün treninqlərin, konfrans və seminarların təşkilində iştirak və rəhbərlik etmişdir. O, "Gender və feminizm", "Gender: siyasi-hüquqi təhlil", "Qadın və münaqişə", "Qadın və siyasət", "Dövlətçilik, modernləşmə və gender", "Multikulturalizm siyasəti din və gender dialoqunda", "Azərbaycanda gender siyasəti", "İKT-nin gender indikatorları" monoqrafiyalarının müəllifi, ali məktəblərdə gender tədqiqatlarının tədrisi məqsədilə hazırlanmış 3 dərsliyin ("Gender tədqiqatları", "Genderə giriş", "Azərbaycanda genderin əsasları") həmmüəlliflərindən biri, 4 nömrəsi işıq üzü görmüş "Genderşünaslıq" elmi-populyar jurnalının baş redaktorudur.

Rəna Mirzəzadə araşdırmalarında milli gender məktəbinin nümayəndəsi kimi çıxış edir. Onun gender yanaşması milli kimlik, eqalitarizm, cinsi tarazlıq kimi ideyalara söykənir. Alim öz tədqiqatlarının nəticələri barədə milli və dünya səviyyəsində keçirilən beynəlxaq konfranslarda, forum və qurultaylarda məruzələr edir, başqa ölkələrin sahə mütəxəssisləri ilə fikir mübadiləsi aparır.

Rəna xanım bir alim kimi tədqiqat ənənəsinin formalaşmasına böyük əhəmiyyət verir və bu mənada gənc kadrların hazırlanmasında yaxından iştirak edir. Onun hazırda rəhbərlik etdiyi siyasətin fəlsəfəsi və sosiologiyası şöbəsi AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun ən məhsuldar şöbələrindən biri hesab olunur.

Rəna Mirzəzadənin elmi və ictimai fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Alim 2011-ci ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə respublikada elmin və təhsilin inkişafında göstərdiyi xidmətə görə "Tərəqqi" medalı, 2019-cu ildə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı, 2021-ci ildə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif olunmuşdur.

Rəna xanımı 70 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona yeni elmi uğurlar və sağlam ömür arzulayırıq.

**İradə HÜSEYNOVA**
**AMEA-nın vitse-prezidenti, akademik**

# "Xəridətül-əcaib və fəridətül-ğəraib" kitabı nəşr olunub

**AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi şurasının qərarı ilə XIV əsrin məşhur ərəb alimi Siracəddin Əbu Həfs Ömər bin əl-Müzəffər ibn əl-Vərdinin "Xəridətül-əcaib və fəridətül-ğəraib" kitabının əslən Azərbaycandan olan, XVI Osmanlı ədibi, tarixçi və tərcüməçisi Mahmud Şirvani tərəfindən türkcəyə edilmiş tərcüməsi kitab halında işıq üzü görüb.**




Adıçəkilən əsərin Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan fotosurəti əsasında hazırlanmış nəşrə tərcümənin birinci yarısı daxil edilib.

İnstitutun aparıcı elmi işçisi filologiya üzrə fəlsəfə doktoru, dosent Sevər Cabbarlının mətnini transfoneliterasiya edib çapa hazırladığı bu kitabda Siracəddin ibn əl-Vərdi o dövrdə məşhur olmuş şəhərlər, çaylar, dağlar, dənizlər, bitkilər və heyvanlar haqqında məlumat vermişdir.

Qeyd edək ki, yeni nəşrin elmi redaktoru akademik Möhsün Nağısoylu, "Ön söz"ün müəllifi filologiya elmləri doktoru professor Kamandar Şərifov, redaktoru və ərəbcə hissələri tərcümə edən isə institutun böyük elmi işçisi Rauf Şeyxzamanlıdır.

# Vətənsevər və dövlətçi alim

*(avtobiqorafik tarixşünaslıq prizmasında baxış)*

**Alimlər haqqında yazmaq asan iş deyildir. Xüsusilə tarixçi alimlərin yaradıcılıq tarixini elmi təhlil etmək ikiqat çətindir. Çünki tarix elm olaraq fərqli interpretasiyaları olan, lakin olduqca vacib bir ciddi araşdırma sahəsidir. Buna görə də tarixi araşdıranlar haqqında sanballı söz demək tarixin özü qədər məsuliyyətli və həm də çətin işdir.**

Əgər tarixçi alimi tanıyırsansa, onun idrakı ilə yanaşı, mənəvi-əxlaqi və bütövlükdə emosional dünyasını duya bilirsənsə, barəsində söz demək artıq zövq məsələsi olur.

Mən tarix elmləri doktoru Eynulla Mədətlini bir neçə ildir ki, tanıyıram. Biz bir institutda - Fəlsəfə və Sosiologiya institutunda çalışırıq. Eynulla müəllim həm direktorun elmi işlər üzrə müavinidir, həm də Heydər Əliyev irsini araşdıran şöbənin müdiridir. Həm şöbə, həm də bütöv institut miqyasında hörməti çoxdur. Buna çalışqanlığı, zəkası, vətənsevərliyi, müstəqil dövlətçiliyə bağlılığı, təmkini və qayğıkeşliyi ilə nail olmuşdur. Əməkdaşlar Eynulla müəllimə həttа şəxsi məsələləri ilə bağlı çəkinmədən müraciət edə bilirlər.



Özü haqqında danışmağı sevmir. Lakin Ulu Öndər Heydər Əliyevlə Naxçıvanda birgə çalışdıqları mərhələdən həvəs və sevgi ilə danışır. Eynulla müəllim Heydər Əliyevin fəaliyyətini konkret faktlarla gözəl təqdim edə bilir. O dərəcədə ki, Ulu Öndər haqqında obyektiv təsəvvür yaranır. Bununla Eynulla Mədətli Ümummilli Lideri sevdirə bilir. Tarixçi alim üçün böyük üstünlükdür!

Eynulla müəllim haqqında danışmağı sevdiyi mövzu İran, Pakistan, Əfqanıstan və Ukraynada səfir işləyən müddətdə həmin ölkələrin tarixindən bəhs etməkdir. Burada Azərbaycan diplomatının səfir işlədiyi ölkənin mədəniyyətinə və tarixinə dərin hörməti ilə, xalqımızın tarixini və mədəniyyətini həmin ölkələrdə tanıtmaq, eləcə də, həmin ölkələri azərbaycanlılara anlatmaq həvəsi maraqlı şəkildə birləşir. Təsadüfi deyildir ki, Eynulla Mədətli həm 1996-2001-ci illərdə yüksək diplomatik vəzifədə çalışdığı (Azərbaycanın Təbrizə təyin edilmiş Baş Konsulu və Azərbaycan Səfirliyinin müşaviri) İran, həm də səkkiz il uğurla xidmət etdiyi Pakistanla bağlı maraqlı əsərlərin müəllifidir. Həmin əsərlərdə E.Mədətli İran və Pakistan tarixini ciddi, obyektiv və elmi araşdırmaqla yanaşı, onların dövlətçilik həyatında türklərin oynadığı rolu da mənbələrə və dəqiq faktlara əsaslanaraq təhlil edir. Həm də bu barədə danışanda Eynulla müəllim ölkələr arasında əməkdaşlığın inkişafı ruhuna köklənmiş məsələlərdən bəhs edir.

Bununla bağlı Eynulla müəllimin söhbətlərinə institutda hər kəs maraq və diqqətlə qulaq asır. Etiraf edək ki, biz Eynulla müəllimin təqdimatında İran və Pakistan türklərinin tarixlərində mövcud olmuş bir sıra əhəmiyyətli məqamları öyrənə bilmişik.

Burada bir haşiyə çıxmaq istərdim. Müasir tarixşünaslıqda (məsələn, fransız tarixşünaslığında) şəxsi avtobioqrafiyadan bütöv toplumun tarixinin müəyyən özəlliklərinə nəzər salmaq metoduna söykənərək Eynulla müəllim haqqında fikir söyləməyə ehtiyac görürəm. Onu konkretləşdirim ki, bu halda "bir tarixçi alimin, Azərbaycan ziyalısının və təcrübəli diplomatının avtobioqrafiyası ilə fəaliyyətinin xarakteri arasında hansı əlaqə ola bilər?" sualına cavab axtarmağa çalışıram. Tərcümeyi-halına baxaq.

Eynulla Mədətli (Mədətli Eynulla Yadulla oğlu) 1954-cü il aprelin 18-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Biçənək kəndində anadan olmuşdur. 1975-ci ildə Naxçıvan Dövlət Universitetinin tarix fakultəsini bitirmişdir. 1981-ci ildə Azərbaycan EA Fəlsəfə və Hüquq İnstitutunun qiyabi aspiranturasını bitirmişdir. 1984-cü ildə fəlsəfə elmləri namizədi elmi dərəcəsi (indiki təsnifata görə, fəlsəfə doktoru), 1994-cü ildə isə dosent elmi adı almışdır. 1975-1996-cı illərdə fasilələrlə Şahbuz Rayon Partiya Komitəsində təlimatçı, Naxçıvan Vilayət Partiya Komitəsinin təbliğat-təşviqat şöbəsində mühazirəçilər qrupunun rəhbəri, Vilayət Partiya Komitəsinin İdeologiya şöbəsinin müdiri, Naxçıvan Dövlət Universitetində müəllim, dosent, kafedra müdiri, prorektor vəzifələrində işləmişdir. 1990-1995-ci illərdə Naxçıvan MR Ali Məclisinin deputatı olmuşdur.

18 aprel 2002-ci il tarixində Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının Pakistan İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsinə təyin edilmişdir. 2005-ci ildə Prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının eyni zamanda iqamətgahı İslamabadda olmaqla, Əfqanıstan İslam Respublikasında səfir vəzifəsinə təyin edilmişdir.

2010-cu ilin iyulun 15-də Prezident İlham Əliyevin Sərəncamı ilə Pakistandan geri çağırılaraq Azərbaycanın Ukraynadakı səfiri vəzifəsinə təyin olunmuşdur. 2015-ci ilin iyununda xidmət müddəti bitdiyinə görə səfir vəzifəsindən geri çağırılmışdır.

Bundan sonra Eynulla müəllim yenidən elmi fəaliyyətə üstünlük vermişdir. Belə ki, 2016-cı ilin yanvarından AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunda mənbəşünaslıq və tarixşünaslıq şöbəsində aparıcı elmi işçi vəzifəsində çalışmışdır. 2017-ci ilin fevral ayından AMEA Fəlsəfə İnstitutunun, hazırda Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işlər üzrə direktor müavinidir, ictimai əsaslarla "Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq fəlsəfəsi" şöbəsinə rəhbərlik edir. 2019-cu ildən tarix elmləri doktorudur, fövqəladə və səlahiyyətli səfir diplomatik dərəcəsi vardır. Yeni Azərbaycan Partiyasının üzvüdür. Ailəlidir, 3 övladı və 7 nəvəsi vardır.

Burada bir metodoloji reduksiya etmək istərdim. İngilis (məsələn, U.Vordsvortun "Avtopioqrafiya" əsəri) və fransız tarixşünaslarının bir qismi (məsələn, F.Ariesin "Köhnə zamanda uşaq və ailə həyatı" əsəri və s.) ingilis və fransız cəmiyyətləri üçün xarakterik olan bir sıra zadəgan ailəsinin avtobioqrafik həyatında bütövlükdə ölkə tarixinin müəyyən özəllikləri haqqında fikir formalaşdırmağa çalışmışlar. Uğurlu alınmışdır.

Azərbaycan cəmiyyəti üçün xarakterik olan ziyalı ailəsinin avtobioqrafik həyatından bütövlükdə Azərbaycanda ziyalılığın, vətəndaşlığın fəlsəfəsinə baxmaq faydalıdırmı?

Tarixçi alim E. Mədətlinin yuxarıda qısa verdiyimiz avtobioqrafik tarixçəsi bütövlükdə Azərbaycan ziyalılığı aspektində maraqlı faktorları aydınlaşdırır. E.Mədətli Azərbaycanın kəndlərinin birində həyatı zəhmətlə keçmiş bir ailədə dünyaya gəlmişdir. Şübhəsiz, ailə mühiti onu uşaqlıqdan zəhmətə, elmə, təhsilə və vətənə bağlılığa yönəltmişdir. Eynulla müəllimin dünyaya gəldiyi ailədə milli adət-ənənəyə böyük saygı olmuşdur. Bu barədə onun, ümumiyyətlə, Biçənək kəndi haqqında danışdıqlarından sezmək mümkündür. Hətta evə daxil olanda ayaqqabıların çıxarılması (bu yerdə fransız tarixşünası F.Ariesin malikanədə yaşayan zədəgan ailəsini təsvir edərkən hətta ayaqqabını qapının önünə düzmək qaydasını belə təsvir etməsi yadıma düşür) kültüründən tutmuş qonşularla münasibətin saxlanmasına qədər bir çox incə məqamlara toxunması bütövlükdə o ailə haqqında təsəvvür yaradır.

E.Mədətlinin ailəsi zəhmətkeşliklə bərabər milli adət-ənənəyə xüsusi diqqət yetirən və eyni zamanda, xalq müdrikliyini mənimsəmiş böyüklər tərəfindən idarə olunmuşdur. Eynulla müəllim zəhmətkeşliklə xalq müdrikliyinin bir-birini tamamladığı çoxlu sayda epizodlar danışa bilər. Deməli, Azərbaycan ziyalısı ailədə mövcud olan ənənəvi zəhmətsevərliklə xalq müdrikliyinin birliyi üzərində yetişə bilər.

Buradan E. Mədətlinin xarakterik Azərbaycan (türk) insanı kimi əmək fəaliyyətinə davamlı olaraq şagirdlik-tələbəlik-partiya xidməti-ali məktəblərdə fəaliyyət-dövlət işlərində çalışmaq, sonra diplomat və alim kimi fəaliyyət göstərmək yolunu keçməsinin tamamilə məntiqi olduğu aydınlaşır.

Bu tale yolunda indiyə qədər olan müddətdə onun özü ilə bir sıra keyfiyyətləri dəyişmədən "daşıdığını" görürəm. Onları belə təsnif edə bilərəm: hər zaman zəhmətə alışqanlıq, dünyaya gəldiyi məkana saygını saxlamaq, elmi fəaliyyətə üstünlük, Azərbaycan poyeziyasına böyük bağlılıq, vətənə sevgi və ayrıca, Heydər Əliyevin siyasi liderliyinə və dövləti fəaliyyətinə sadiqlik!

Bu keyfiyyətləri Eynulla müəllimin həyat yolu və malik olduğu şəxsi özəllikləri təsdiq edir. Əsərlərinə baxdıqda yuxarıda vurğuladığımız kimi tariximizə və bütövlükdə türk tarixinə milli təəssübkeşlikdən və dəqiq təhlildən "yoğrulmuş" yanaşmanı görürük. Rəhbərlik etdiyi şöbənin əməkdaşları da həmin istiqamətdə araşdırmalar aparırlar. Eynulla müəllimin şöbəsi hər il Ulu Öndərin siyasi irsinə, o cümlədən azərbaycançılığa aid mövzularda fəlsəfi-elmi toplu dərc edir. Artıq sayca 4-cü olan "Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq" (2023) adlı toplu işıq üzü görmüşdür. Onların hər birbaşa Heydər Əliyevin siyasi irsinin müxtəlif aspektlərdə tədqiqinə həsr edilən məqalələrdən təşkil edilmişdir.

Tarix elmləri doktoru E. Mədətli monoqrafiyalar yazır və institutda həyata keçirilən müxtəlif elmi tədqiqat layihələrin işlənməsində aktiv iştirak edir. Hazırda Eynulla müəllim altı monoqrafiyanın müəllifidir. Onun Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar işləyib nəşr etdirdiyi "Heydər Əliyevin siyasi irsi: Azərbaycançılıq və Azərbaycan - Türkiyə birliyinin fəlsəfəsi" əsəri xüsusilə maraq doğurur. Son olaraq E.Mədətli "Heydər Əliyev - İlham Əliyev. Müasir Azərbayanın liderlik fəlsəfəsi və dövlətçilik təcrübəsi" (2023-cü il) adlı kollektiv monoqrafiyanın yazılmasında fəal iştirak etmiş və işin böyük həcmini üzərinə götürmüşdür.

Sonda E.Mədətlinin alim-ziyalı kimi iki özəlliyini də vurğulamaq istərdim. Eynulla müəllim həm aydın izah edə bilir, həm də aktual mövzu formalaşdırmaq istiqamətində konkret ideya verir. Bizim onunla həmmüəllif olduğumuz "Bir millət, iki dövlət: fəlsəfi-tarixi təhlil" (2020) adlı monoqrafiyamız onun ideyasından yaranmışdır. Aydın şəkildə araşdırma mövzusunu formalaşdırmış və mən də tam qəbul etmişəm.

E.Mədətlinin alim-ziyalı kimi digər özəlliyi böyük Vətənsevərliyidir! Sözün həqiqi mənasında Azərbaycançı, Vətənsevər, dövlətini, xalqını, millətini dərindən sevən tədqiqatçıdır! Bu keyfiyyətini Eynulla müllimin malik olduğu bütün üstün keyifyyətlərin fövqündə görürəm və böyük saygım var!

Öncə qoyduğum suala bir də yekun olaraq qayıdıram: Azərbaycan ziyalı-alimlərinin avtobioqrafik tarixlərindən cəmiyyətin tarixinə keçid mümkündürmü? Məncə, nəinki mümkündür, hətta çox vacib aktual məsələdir. Çünki Azərbaycan ziyalılarının hər biri ayrıca enerji, bilik, tərbiyə, vətənə bağlılıq qaynağıdırlar! Daha təcrübəli olanları öyrənməklə bizlər niyə enerjili, bilikli, tərbiyəli və vətənə bağlı olmayaq? O cümlədən, Eynulla Mədətli kimi alimlərin avtobioqrafik tarixləri bizlərə çox şeyləri demirmi?

70 yaşın mübarək Azərbaycan ziyalısı! Hələ uzun illər bir-birimizə Fəlsəfə və Sosiologiya İnstitutunda "sabahınız xeyir!" deyə bilək! Bu kollektivdən bir "yarpaq belə tökülməsin"!

**Füzuli QURBANOV**
**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, fəlsəfə elmləri doktoru**

# "TÖHFEYİ-SAMİ"

## İlk azərbaycandilli təzkirə

**Son zamanlar Əlyazmalar İnstitutunda çap olunan dəyərli kitablardan biri də filologiya üzrə fəlsəfə doktoru, dosent Əkrəm Bağırovun fars dilindən tərcümə edib nəşrə hazırladığı Sam Mirzə Səfəvinin "Töhfeyi-Sami" təzkirəsidir. Kitabın elmi redaktoru akademik Teymur Kərimli, tərcümənin redaktorları Hacı Rauf Şeyxzamanlı, Cəmalə Mirzəyeva və Səadət Nəsirovadır.**



Akademik Teymur Kərimli kitaba yazdığı "Səfəvilər dövrü Azərbaycan ədəbiyyatının qaynaqlarından biri" adlı ön sözdə "ədəbi inkişafımız üçün təzkirə müəlliflərinə borclu" olduğumuzu, Orta əsr müəlliflərini tanımaq baxımından bu təzkirələrin böyük əhəmiyyətə malik olduğunu vurğulayır və Sam Mirzənin "Töhfeyi-Sami" təzkirəsinin ilk azərbaycandilli təzkirə kimi yüksək dəyər kəsb etdiyini qeyd edir və "Azərbaycan şairlərinin təzkirədə təqdim edilmiş çoxsaylı ədəbi portretləri, onların yaradıcılıqlarından verilmiş örnəklər, türkdilli şairlərə ayrıca fəsil ayrılması, o şairlərin türk dilində yazdıqları şeirlərdən misallar bunu təkzibolunmaz bir fakt kimi təsdiq edir" yazır. Müəllif ön sözdə təzkirənin yazıldığı tarixi şəraitdən, Sam Mirzənin həyat və yaradıcılığından da bəhs edir və Əkrəm Bağırovun bu işinə yüksək qiymət verərək, bunu "ədəbiyyatımızın, humanitar elmimizin də böyük uğuru" hesab edir.

Əkrəm Bağırovun kitaba yazdığı "Azərbaycan ədəbi tənqidinin ilkin qaynaqlarından "Töhfeyi-Sami" təzkirəsi" adlı yazıda ümumi təzkirə yaradıcılığından, Azərbaycan təzkirəçiliyindən bəhs edərək yazır: "Üç dildə yazılmış və üç dildə əsərlər yazan şairləri əhatə edən bu təzkirələrin müəllifləri hər üç dili bilməliri səbəbindən bir-birindən bəhrələnmiş, əsərləri tərcümə edərək yaymış, onları müsəlman xalqlarının şərikli malı kimi qəbul etmişlər.

Eyni sözləri fars dilində yazılmış Azərbaycan təzkirələri haqqında da demək olar. Müsəlman Şərqində geniş yayılmış belə məşhur təzkirələrdən biri də I Şah İsmayılın oğlu Əbu Nəsr Sam Mirzə Səfəvinin h.q.957/m.1550 - h.q.968/m.1561-ci illərdə fars dilində qələmə aldığı "Töhfeyi-Sami" əsəridir".

Kitabın "Tənvin" hissəsində yenə də şeir nümunələrinə müraciət edən Sam Mirzə kitabdakı fəsillərdə nədən bəhs etdiyini göstərir.

Kitabın "Sultanlar haqqında" adlı fəslində Şah İsmayıl Səfəvinin, onun müasirləri olmuş sultanların və onların övladlarının, o cümlədən Bəhram Mirzə, Sultan Məhəmməd Mirzə, Sultan Həsən, Sultan Hüseyn Mirzə, Bədiüz-zəman Mirzə, Fəridun Hüseyn Mirzə, Şah Qərib Mirzə, Məhəmməd Mömin Mirzə, Babur padşah, Humayun padşah, Əsgəri Mirzə, Sultan Yaqub, Sultan Səlim, Sultan Süleyman, Şeybək xan, Übeydullah xan bin Sultan Mahmud, Şah Adil, Mirzə şah Hüseyn kimi şairlərin haqqında qısa məlumat və bəzilərinin əsərlərində parçalar verilmişdir.

İkinci fəsildə Peyğəmbər (s) nəslindən olan dahilərin, o cümlədən Mir Əbdülbaqi, Mir Qəvaməddin Həsən, Əmir Müizzəddin Məhəmməd, Əmir Məhəmmədəmir Yusif, Əmir Təqieddin Məhəmməd, Mirzə Şərəf Cahan, Mir Qüdsi, Şah Səfi (Razi), Əmir Hadi, Əmir Hac, mirzə Qasim, mirzə Əsgər, Əmir Seyyid Şərif, Şah Tahir, qazi Ruhulla, Mir Əbdülbaqi, Qazi Mahmud, Mir Əbdülkərim, Mir Hüseyn, Xəlifə Əsədulla, Mirzə Sultan Əmini, Mir Humayun, Qazi İxtiyar, Əmirəli Ərəb, Əmir Rasti, Kamal İsmayıl, Əmir Əzizullah, Qazi Məhəmməd, Qazi Ətaullah, Mir Kəmaləddin Hüseyn Xəlqi, Mirək Xirəd, Seyyid Həsən Qazi, Mir Həsən Fəndərəski, Əmir Xanzadə Haşim, Şah Qasim, Mir Əbdülbaqi, Əmir Aşiqi Türbəti və b. haqqında, alimlərdən isə Qazi Mir Hüseyn Məntiqi, Mövlana Cəlaləddin Məhəmməd Dəvani, Mövlana Hüseyn Ərdəbili, Əmir Feyzulla, Mövlana Sultan Məhəmməd Astrabadi, Şeyx Fəzlullah və b. haqqında olduqca qısa məlumatlar və əsərlər nümunələr, bəzilərindən isə 1-2 beyt verilmişdir.

III fəsildə "Möhtərəm vəzirlər və başqa qələm sahibləri haqqında", o cümlədən Mirzə Şah Hüseyn, Xacə Cəlaləddin Məhəmməd Təbrizi, Məlik Mahmudcan Deyləmi və b., IV fəsildə "Təzim edilməsi vacib olan adlı-sanlı həzrətlər haqqında", o cümlədən Mirvarid, Xandəmir, Şeyxzadə Lahici, Xorasan xan və b., V fəsildə təxəllüsləri ilə məşhur olan şairlər, o cümlədən böyük şairlərdən Mövlana Əbdürrəhman Cami, Mövkana Hilali Cığatayi, Mövlana Abdullah Hatifi, Mövlana Nizaməddin Nizam və digər şairlər haqqında, VI fəsildə "Türklər və onların tanınmış şairləri haqqında, o cümlədən Əlişir Nəvai, Süheyli, Mövlana Mir Məhəmməd Saleh, Mövlana Mir Ahi, və b., VII fəsildə "Şeirləri qəbul olunan incə söz sahibləri və yerdə qalan başqa şairlər haqqında, o cümlədən Mövlana Əhmədi, Mövlana Qasim Qərəbnu, Mövlana Həsən Zari-Natəvan, Mövlana Birəh və b. haqqında qısa məlumatlar və əsərlərindən örnəklər, çox vaxt isə 1-2 beyt verilmişdir.

Kitabın sonunda ümumi adlar göstəricisi və hər fəsildə olan şairlərin adları təqdim edilmişdir.

Ən sonda Əkrəm Bağırovun tərcümə etdiyi və nəşrə hazırladığı bütün kitabların siyahısı verilmişdir.

Kitab müasir ədəbiyyatşünaslar, klassik ədəbiyyatla məşğul olan dissertantlar, doktorantlar və tələbələr üçün dəyərli vəsaitdir. Əkrəm Bağırov kitabı çox böyük zəhmət və səy nəticəsində ərsəyə gətirmişdir.

**Sona XƏYAL**
**Əlyazmalar İntsitutunun böyük elmi işçisi**

# Azərbaycan Milli Elmlər Akademiyası

Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 mart 2024-cü il tarixli 163s nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatlarının 2024-cü il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planına və AMEA Rəyasət Heyətinin 3 aprel 2024-cü il tarixli 12/12 nömrəli qərarına əsasən, fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya qəbul elan edir. Sənəd qəbulu 16 aprel 2024-cü il tarixindən 15 may 2024-cü il tarixinədək həyata keçiriləcək.

**Qəbul şərtləri:**

Fəlsəfə doktoru proqramı üzrə doktoranturа və dissertanturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan Azərbaycan Respublikasının vətəndaşları sənəd təqdim edə bilərlər.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq istəyən şəxslər xarici dil, fəlsəfə və ixtisas fənnindən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən xarici dil imtahanından keçid balını toplayan şəxslər fəlsəfə fənni üzrə imtahanda, fəlsəfə fənni üzrə "məqbul" qiymət alan şəxslər isə ixtisas fənni üzrə imtahanda iştirak etmək hüququ əldə edirlər.

Fəlsəfə doktoru proqramı üzrə dissertanturaya müvafiq tədqiqat sahəsində müəyyən elmi araşdırma təcrübəsinə malik, əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan elmi və elmi-pedaqoji kadrlar müraciət edə bilərlər. Dissertanturaya qəbul olmaq istəyən şəxslər azı iki il elmi və ya elmi-pedaqoji iş stajına malik olmalıdırlar.

Fəlsəfə doktoru proqramı üzrə dissertanturaya qəbul olmaq istəyən şəxslər xarici dil üzrə ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanında keçid balını toplamalıdırlar.

Fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər AMEA-nın müvafiq elmi müəssisələrinə təqdim edilməlidir:

- elmi müəssisənin rəhbərinin adına ərizə;
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- iş yerindən xasiyyətnamə;
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun notarial qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması ilə bağlı şəhadətnamə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti;
- xarici dil bilikləri üzrə beynəlxalq sertifikatın surəti (IELTS, TOEFL, TestDaf, DELF, DALF, STANAG, Cambridge English Qualifications - olduğu halda).

Qeyd edək ki, xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatına malik olan şəxslər xarici dil üzrə qəbul imtahanından azad olunurlar. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyini Dövlət İmtahan Mərkəzi müəyyənləşdirir.

Elmlər doktoru proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji təcrübəyə və nailiyyətlərə malik, "fəlsəfə doktoru" (elmlər namizədi) elmi dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.

Dissertantlıq yolu ilə elmlər doktoru elmi dərəcəsi almaq hüququna "fəlsəfə doktoru" (elmlər namizədi) elmi dərəcəsi olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan elmi və elmi-pedaqoji kadrlar malikdir.

Elmlər doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul üçün aşağıda qeyd olunan sənədlər AMEA-nın müvafiq elmi müəssisələrinə təqdim edilməlidir:

- elmi müəssisənin rəhbərinin adına ərizə;
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- əmək kitabçasından çıxarış;
- iş yerindən xasiyyətnamə;
- çap olunmuş elmi işlərin siyahısı;
- fəlsəfə doktoru (elmlər namizədi) elmi dərəcəsi diplomunun notarial qaydada təsdiq edilmiş surəti;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun notarial qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması ilə bağlı şəhadətnamə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

**Qeyd:** Doktorantura və dissertanturaya sənəd qəbulu, eyni zamanda "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada aparılacaq. Sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az platformasında qeydiyyatdan keçməlidirlər. Portal.edu.az vasitəsilə sənəd qəbulu 16 aprel 2024-cü il tarixi, saat 11:00-dan **15 may 2024-cü il tarixi, saat 18:00-dək** həyata keçiriləcək. Portal ilə bağlı əlavə məlumat almaq üçün elmi müəssisənin təhsil şöbəsinə müraciət etmək olar.

**Əlavə məlumat üçün əlaqə nömrəsi:**
**(+994 12) 539 30 60;**
**E-mail: eti@science.az**

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 mart tarixli 163s nömrəli Sərəncamı ilə təsdiq edilmişdir*

**Azərbaycan Milli Elmlər Akademiyası**
**2024-cü il üçün fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya qəbul planı**

| İxtisasın şifri | İxtisasın adı | Fəlsəfə doktoru hazırlığı üzrə | | | | | | | | Elmlər doktoru hazırlığı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | doktorantura | | | | | dissertantura | | | doktorantura | | | | | dissertantura | | |
| | | cəmi | o cümlədən: | | | | cəmi | o cümlədən: | | cəmi | o cümlədən: | | | | cəmi | o cümlədən: | |
| | | | büdcə hesabına | | ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla | | büdcə hesabına | | ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| **Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu** | | | | | | | | | | | | | | | | | |
| 5715.01 | Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid | 1 | 1 | | | | 1 | 1 | | | | | | | 1 | 1 | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 2 | 2 | | | | 2 | 2 | | 1 | 1 | | | | 1 | 1 | |
| 5717.01 | Türk xalqları ədəbiyyatı | 1 | 1 | | | | 1 | 1 | | | | | | | 1 | 1 | |
| 5718.01 | Dünya ədəbiyyatı (Amerika, ingilis) | 1 | 1 | | | | 1 | 1 | | 1 | 1 | | | | 1 | 1 | |
| **Cəmi:** | | **5** | **5** | | | | **5** | **5** | | **2** | **2** | | | | **4** | **4** | |
| **Nəsimi adına Dilçilik İnstitutu** | | | | | | | | | | | | | | | | | |
| 5701.01 | Tədbiqi dilçilik | | | | | | 1 | | 1 | 1 | | 1 | | | | | |
| 5704.01 | Dil nəzəriyyəsi | 2 | 1 | 1 | | | 2 | 1 | 1 | 2 | | 2 | | | 1 | | 1 |
| 5706.01 | Azərbaycan dili | 1 | | 1 | | | 1 | 1 | | 1 | | 1 | | | 1 | | 1 |
| 5708.01 | German dilləri | 1 | | 1 | | | 1 | 1 | | 1 | | 1 | | | | | |
| 5710.01 | Türk dilləri | 1 | | 1 | | | | | | | | | | | | | |
| 5714.01 | Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik | 1 | | | | 1 | | | | | | | | | | | |
| **Cəmi:** | | **6** | **1** | **4** | | **1** | **5** | **3** | **2** | **5** | | **5** | | | **2** | | **2** |
| **Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu** | | | | | | | | | | | | | | | | | |
| 3355.01 | Dokumentalistika, sənədşünaslıq və arxivşünaslıq (tarix, filologiya) | 1 | 1 | | | | 1 | 1 | | 1 | | 1 | | | 1 | 1 | |
| 5509.01 | Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları | 2 | 2 | | | | 1 | 1 | | 1 | | 1 | | | 2 | 2 | |
| 5721.01 | Mətnşünaslıq, mənəvi-mədəni irsə dair qədim əlyazmaların işlənməsi (tərcüməsi, tədqiqi və nəşrə hazırlanması) | 1 | 1 | | | | 2 | 2 | | 2 | 1 | 1 | | | 3 | 2 | 1 |
| **Cəmi:** | | **4** | **4** | | | | **4** | **4** | | **4** | **1** | **3** | | | **6** | **5** | **1** |
| **Folklor İnstitutu** | | | | | | | | | | | | | | | | | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | | | | | | 1 | 1 | | | | | | | 1 | 1 | |
| 5719.01 | Folklorşünaslıq | 1 | 1 | | | | 2 | 2 | | 1 | | 1 | | | 2 | 2 | |
| **Cəmi:** | | **1** | **1** | | | | **3** | **3** | | **1** | | **1** | | | **3** | **3** | |

# doktorantura və dissertanturaya qəbul elan edir

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Memarlıq və İncəsənət İnstitutu** | | | | | | | | | | | | | | | | | |
| 6214.01 | Kino, tele və digər ekran sənətləri | 1 | 1 | | | | | | | | | | | | | | |
| 6215.01 | Təsviri sənət | 1 | 1 | | | | | | | | | | | | | | |
| 6218.01 | Dekorativ tətbiqi sənət | 1 | 1 | | | | | | | | | | | | | | |
| 6219.01 | Kulturologiya və onun ümumi məsələləri | | | | | | 1 | 1 | | | | | | | | | |
| | **Cəmi:** | **3** | **3** | | | | **1** | **1** | | | | | | | | | |
| **Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu** | | | | | | | | | | | | | | | | | |
| 5102.01 | Etnoqrafiya və etnologiya | 3 | 1 | 1 | | 1 | 2 | | 2 | 1 | | 1 | | | 1 | 1 | |
| 5502.01 | Ümumi tarix | 2 | | | 1 | 1 | | | | | | | | | 2 | 1 | 1 |
| 5503.02 | Vətən tarixi | 7 | 5 | 2 | | | 3 | 2 | 1 | 2 | | 2 | | | 3 | 3 | |
| 5507.01 | Beynəlxalq münasibətlər tarixi | 1 | | | | 1 | 1 | | 1 | | | | | | 1 | | 1 |
| 5509.01 | Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları | 2 | 1 | 1 | | | 1 | 1 | | | | | | | 1 | 1 | |
| | **Cəmi:** | **15** | **7** | **4** | **1** | **3** | **7** | **3** | **4** | **3** | | **3** | | | **8** | **6** | **2** |
| **Arxeologiya və Antropologiya İnstitutu** | | | | | | | | | | | | | | | | | |
| 5505.02 | Arxeologiya | 3 | 3 | | | | 2 | 2 | | 2 | | 2 | | | 2 | 2 | |
| | **Cəmi:** | **3** | **3** | | | | **2** | **2** | | **2** | | **2** | | | **2** | **2** | |
| **Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu** | | | | | | | | | | | | | | | | | |
| 5310.01 | Dünya iqtisadiyyatı | 3 | 2 | | 1 | | 1 | | 1 | | | | | | 1 | 1 | |
| 5502.01 | Ümumi tarix | 1 | 1 | | | | 1 | 1 | | | | | | | 1 | 1 | |
| 5503.01 | Ölkələr tarixi | | | | | | 1 | 1 | | | | | | | | | |
| 5704.01 | Dil nəzəriyyəsi | | | | | | 1 | 1 | | | | | | | | | |
| 5711.01 | İran dilləri | | | | | | 1 | | 1 | | | | | | | | |
| 5713.01 | Sami dilləri | | | | | | 2 | 1 | 1 | | | | | | 1 | 1 | |
| 5714.01 | Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik | | | | | | 1 | 1 | | | | | | | | | |
| 5717.01 | Türk xalqları ədəbiyyatı | 1 | 1 | | | | 1 | 1 | | | | | | | 2 | 1 | 1 |
| 5718.01 | Dünya ədəbiyyatı (fars,ərəb) | 2 | 1 | | 1 | | 2 | 1 | 1 | | | | | | 1 | 1 | |
| 5901.01 | Beynəlxalq münasibətlər | 3 | 2 | 1 | | | 2 | 2 (Qafqaz-şünaslıq İnstitutu üçün 1 məqsədli yer) | | | | | | | 2 | 1 (Qafqaz-şünaslıq İnstitutu üçün 1 məqsədli yer) | 1 |
| 7213.01 | Dinşünaslıq | | | | | | 1 | 1 | | | | | | | | | |
| 7214.01 | Dinin tarixi və fəlsəfəsi | | | | | | | | | | | | | | 1 | | 1 |
| | **Cəmi:** | **10** | **7** | **1** | **2** | | **14** | **10** | **4** | | | | | | **9** | **6** | **3** |
| **Fəlsəfə və Sosiologiya İnstitutu** | | | | | | | | | | | | | | | | | |
| 5908.01 | Siyasi nəzəriyyə | 1 | 1 | | | | 1 | 1 | | | | | | | 1 | 1 | |
| 6310.01 | Sosial problemlər | 1 | 1 | | | | | | | | | | | | | | |
| 6312.01 | Sosiologiyanın nəzəriyyəsi, metodologiyası və tarixi | 1 | 1 | | | | | | | | | | | | 1 | 1 | |
| 6114.01 | Sosial psixologiya | 1 | 1 | | | | | | | | | | | | 1 | 1 | |
| 7201.01 | Bilik fəlsəfəsi | 1 | 1 | | | | 1 | 1 | | | | | | | | | |
| 7207.01 | Sosial fəlsəfə | 1 | 1 | | | | 1 | 1 | | | | | | | | | |
| 7210.01 | Fəlsəfə tarixi | 1 | 1 | | | | | | | | | | | | | | |
| 7211.01 | Estetika | 1 | 1 | | | | | | | | | | | | | | |
| 7212.01 | Etika | 1 | 1 | | | | | | | | | | | | 1 | 1 | |
| 7213.01 | Dinşünaslıq | 1 | 1 | | | | 1 | 1 | | | | | | | 1 | 1 | |
| 7214.01 | Dinin tarixi və fəlsəfəsi | 1 | 1 | | | | 1 | 1 | | | | | | | 1 | 1 | |
| | **Cəmi:** | **11** | **11** | | | | **5** | **5** | | | | | | | **6** | **6** | |
| **NAXÇIVAN BÖLMƏSİ** | | | | | | | | | | | | | | | | | |
| **Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu** | | | | | | | | | | | | | | | | | |
| 5503.02 | Vətən tarixi | 2 | | 1 | | 1 | | | | | | | | | | | |
| 5505.02 | Arxeologiya | 2 | | 2 | | | | | | | | | | | | | |
| | **Cəmi:** | **4** | | **3** | | **1** | | | | | | | | | | | |
| **İncəsənət, Dil və Ədəbiyyat İnstitutu** | | | | | | | | | | | | | | | | | |
| 5706.01 | Azərbaycan dili | 1 | | 1 | | | | | | | | | | | | | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 3 | | 2 | | 1 | | | | | | | | | | | |
| 5718.01 | Dünya ədəbiyyatı (ingilis) | 1 | | | | 1 | | | | | | | | | | | |
| 5719.01 | Folklorşünaslıq | 1 | | 1 | | | | | | | | | | | | | |
| | **Cəmi:** | **6** | | **4** | | **2** | | | | | | | | | | | |
| **GƏNCƏ BÖLMƏSİ** | | | | | | | | | | | | | | | | | |
| **Nizami Gəncəvi Mərkəzi** | | | | | | | | | | | | | | | | | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | | | | | | 1 | 1 | | | | | | | | | |
| | **Cəmi:** | | | | | | **1** | **1** | | | | | | | | | |
| **Humanitar Tədqiqatlar İnstitutu** | | | | | | | | | | | | | | | | | |
| 5717.01 | Türk xalqları ədəbiyyatı | | | | | | 1 | 1 | | | | | | | | | |
| | **Cəmi:** | | | | | | **1** | **1** | | | | | | | | | |
| **Diyarşünaslıq İnstitutu** | | | | | | | | | | | | | | | | | |
| 5503.02 | Vətən tarixi | | | | | | 1 | 1 | | | | | | | 1 | 1 | |
| 5901.01 | Beynəlxalq münasibətlər | | | | | | 1 | 1 | | | | | | | | | |
| | **Cəmi:** | | | | | | **2** | **2** | | | | | | | **1** | **1** | |
| | **Yekun:** | **68** | **42** | **16** | **3** | **7** | **50** | **40** | **10** | **17** | **3** | **14** | | | **41** | **33** | **8** |

YENİ NƏŞRLƏR

## Cümhuriyyət məfkürəsi

**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi filologiya elmləri doktoru, professor Asif Rüstəmlinin "Cümhuriyyət məfkürəsi" kitabı çap olunub.**



Kitabın elmi redaktoru və "Mənbəşünas hünəri" adlı "Ön söz"ünün müəllifi AMEA-nın prezidenti akademik İsa Həbibbəylidir. Tərtib edəni Türkiyə Cümhuriyyəti Fırat Universitetinin əməkdaşı Növrəstə Rüstəmlidir.

672 səhifəlik kitab müəllifin son 10 ildə beynəlxalq elmi sistemlərə daxil olan nüfuzlu jurnallarda, dövri mətbuat orqanlarında, məcmuələrdə nəşr edilmiş elmi və elmi-publisistik məqalələr toplusundan ibarətdir. "Elm və təhsil" nəşriyyatında çap olunan kitab arxiv materialları, məxfi sənədlər əsasında yazılmış əsərlərin əksəriyyəti faktoloji yeniliyi, təhlil və dəyərləndirmə fərqliliyi ilə seçilir.

Toplu "Siyasətin siqləti və qüdrəti", "Cümhuriyyət məfkurəsi", "Elm məbədgahları", "C.Cabbarlı irsindən araşdırmalar", "Milli mətbuat tariximizdən", "Milli ədəbiyyatımızın klassikləri", "Ədəbi portretlər" başlıqlı yeddi bölümdən ibarətdir.

## Azərbaycan ədəbiyyatşünaslıq elmi müstəqillik illərində (1991-2023)

**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Azərbaycan ədəbiyyatşünaslıq elmi müstəqillik illərində (1991-2023)" biblioqrafiyası çap olunub. Nəşrdə müstəqillik illərində bu elm ocağında müdafiə olunmuş dissertasiya, çap olunmuş kitab və monoqrafiyaların biblioqrafiyası yer alıb. Kitab Ədəbiyyat İnstitutunun Elmi şurasının 8 fevral 2023-cü il tarixli qərarı ilə nəşr edilib.**



Kitabın layihə rəhbəri və elmi məsləhətçisi AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, redaktoru Ədəbiyyat İnstitutunun elmi katibi filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlıdır. Tərtibçisi Elektron xidmətlər şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru, dosent Zakirə Əliyeva, ixtisas redaktoru Sona İbrahimovadır.

"Elm və təhsil" nəşriyyatında çap olunan toplu 578 səhifədir. Kitab tərtibçi Zakirə Əliyevanın "Ədəbiyyatşünaslıq elminin müasir inkişafının biblioqrafik icmalı" yazısı ilə başlayır. Həmin yazı Azərbaycan dilindən başqa, türk, ingilis və rus dillərində də verilib.

ELAN

## "Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda konfrans

**23-24 may 2024-cü il tarixlərində Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə "Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda elmi-praktiki konfrans keçiriləcəkdir.**

**Konfransın mövzuları**

1.Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə təbiətə qayğıkeş münasibəti

2.1969-1982-ci illərdə ölkədə ilk dəfə ümumxalq miqyasda yaşıllaşdırma tədbirlərinin həyata keçirilməsi

3.Azərbaycanın zəngin flora və fauna müxtəlifliyinin qorunub saxlanılması ilə əlaqədar Ümummilli Lider Heydər Əliyevin tələbləri və tövsiyələri

4.Müstəqillik dövründə Azərbaycan Respublikasında Ulu Öndər Heydər Əliyevin təbiətə yeni baxışı, ətraf mühit sahəsində qəbul edilmiş mühüm qərar və tövsiyələr

5.Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə ölkənin ekoloji siyasətinin formalaşması və inkişaf etdirilməsi məsələləri

6. Ulu Öndər Heydər Əliyev və xüsusi mühafizə olunan təbiət əraziləri: yaradılması, genişləndirilməsi və idarə olunması

7. Azərbaycan mədəniyyəti, folkloru, ədəbiyyatı və fəlsəfi dünyagörüşündə ekoloji ictimai şüur məsələləri və təbiətə münasibət

8. Azərbaycanın ətraf mühit problemləri, bioloji müxtəlifliyin qorunması, ekoloji monitorinq məsələləri

9. Ağıllı ətraf mühit, yaşıl artım və yaşıl texnologiyalar məsələləri

10. Müasir dövrdə ekologiya və ətraf mühitin qorunmasında rəqəmsal texnologiyalar və süni intellekt faktoru

11. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Yaşıl dünya naminə həmrəylik" və yaşıl enerji siyasəti

12. Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən yaşıllaşdırma və reintroduksiya layihələri

13. Azərbaycanın təbii landşaftları, torpaq və su ehtiyatları

14. İşğaldan azad olunmuş ərazilərin ekoloji problemləri

15. İctimai ekologiya və sağlamlıq problemləri

**Konfransın keçirilmə tarixi**

23-24 may 2023-cü il

**Konfransın dili**

Azərbaycan və ingilis

Konfrans materialları nəşr olunacaq, AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və AR Elm və Təhsil Nazirliyinin rəsmi saytlarında yerləşdiriləcək.

**Əsas istiqamətlər**

Təqdim olunan tezislər konfrans mövzuları ilə bilavasitə əlaqələndirilməlidir.

**Məruzə tezislərinin tərtib olunma qaydaları**

- Mətn Microsoft Word redaktorunda Times New Roman şrifti ilə (hərflərin ölçüsü - 12, interval - 1,15) yığılır, A4 formatında təqdim edilir (səhifənin kənar boşluqları hər tərəfdən 2 sm qoyulur);
- Məruzənin mətni 3 səhifədən artıq olmamalıdır;
- Tezisdən yuxarıda, sağda onun hansı bölməyə təqdim edilməsi mütləq qeyd olunmalıdır;
- Mətnin əvvəlində ortadan məruzənin adı (baş hərflərlə, bold), onun altında tam şəkildə müəllifin adı və soyadı, onun altında təmsil etdiyi təşkilatın tam adı, korrespondent müəllifin e-mail ünvanı yazılır;
- Mətndə abzaslar 1 sm qoyulur.

**Məruzə tezislərinin göndəriləcəyi ünvan və qəbul olunması üçün son tarix**

Tezislər konfrans.ekol.2024@gmail.com elektron ünvanına göndərilməlidir.

Son tarix: 6 may 2024-cü il

**Ünvan: Azərbaycan Milli Elmlər Akademiyasının Əsas binası Bakı şəhəri, Hüseyn Cavid pr., 115**

## "Muxtariyyətin 100 ili: keçmişdən bu günə və sabaha" mövzusunda beynəlxalq elmi konfrans

**AMEA-nın Naxçıvan Bölməsi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə 6-8 iyun 2024-cü il tarixlərində Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100-cü ildönümünə həsr edilmiş "Muxtariyyətin 100 ili: keçmişdən bu günə və sabaha" mövzusunda üz-üzə və onlayn formatda beynəlxalq elmi konfrans keçiriləcək.**

**Konfransda aşağıdakı istiqamətlər üzrə müzakirələr aparılacaq:**

- 1917-ci ilin Rusiya hadisələri və bunun Cənubi Qafqaza təsiri;
- Türk hərbi heyətinin Naxçıvana gəlməsi, fəaliyyəti və türk diplomatlarının rolu;
- Araz-Türk Cümhuriyyəti, onun Azərbaycan Xalq Cümhuriyyəti və Cənubi-Qərbi Qafqaz Respublikası ilə əlaqələri;
- İngilis və ABŞ hərbi qüvvələrinin Naxçıvanla bağlı siyasətləri;
- Azərbaycan Xalq Cümhuriyyəti, Sovet Azərbaycanı və Naxçıvan;
- Ermənilərin Naxçıvan diyarını tutmaq cəhdləri və törətdiyi soyqırımlar;
- Naxçıvanda hərbi-siyasi vəziyyət və diyarın sovetləşməsi;
- Sovet Rusiyasının Naxçıvan diyarı ilə bağlı ikili siyasəti;
- Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvan;
- Naxçıvan tarixi, arxeologiyası və etnoqrafiyası;
- Nəriman Nərimanov, Behbud Şahtaxtinski, Heydər Əliyev və Naxçıvan tarixi məsələləri;
- Naxçıvanın inzibati idarəçilik sistemində dəyişikliklər;
- Naxçıvan Muxtar Respublikasının təşkili;
- Ermənilərin Moskva və Qars müqavilələrini ləğv etmək cəhdləri;
- Naxçıvan Muxtar Respublikasının siyasi-hüquqi statusu;
- Naxçıvanda ictimai-siyasi proseslər;
- Naxçıvan MSSR-in inkişaf tarixi;
- Naxçıvan Muxtar Respublikası müstəqillik illərində;
- Muxtariyyət illərində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı;
- Naxçıvan Muxtar Respublikasında təhsil, elm və mədəniyyətin inkişafı;
- Naxçıvan Muxtar Respublikasının elmi-ədəbi və mədəni mühiti;
- Naxçıvan Muxtar Respublikasının təşkili və inkişafında xidmətləri olan görkəmli şəxsiyyətlər (tərcümeyi-hal istisna olmaqla).

**Xülasə və məqalənin yazı qaydaları:**

-Xülasə 250-300 söz, 10 pt şrift (Times New Roman), 1 interval ara ilə Azərbaycan, ingilis və rus dillərində göndərilməlidir. Xülasənin sonunda 10 sözü keçməməklə açar sözlər qeyd olunmalıdır;

-Məqalənin tam mətni 7-10 səhifə, 12 pt şriftlə Azərbaycan, türk, ingilis yaxud rus dillərində göndərilməlidir.

**Mühüm tarixlər:**

-Konfransda iştirak etmək istəyənlər məqalələrini 10 may 2024-cü il tarixinədək ameanaxcivanbolmesi@gmail.com e-poçt ünvanına göndərə bilərlər.

- Məqalələrin qəbul edilib-edilməməsi ilə bağlı məlumat 20 may 2024-cü il tarixdə təqdim olunan e-poçt ünvanı vasitəsilə veriləcək.

Qeyd: Qaydalara uyğun tərtib olunmayan, həmçinin konfransda məruzə etməyən müəlliflərin məruzə mətnləri konfrans materialları toplusuna daxil edilməyəcək.

Konfransın qaydaları, mövzu başlıqları və istiqamətləri ilə daha ətraflı AMEA Naxçıvan Bölməsinin www.ameanb.az saytında tanış olmaq mümkündür.

**Ünvan: AZ7000, Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76**
**Tel.: (+99436) 544 09 64**
**(+99436) 545 67 45**
**Faks: (+99436) 545 46 22**
**E-poçt: ameanaxcivanbolmesi@gmail.com**

MÜSABİQƏ

## Dilçilik İnstitutu

**Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu ştatda vakant olan vəzifəni tutmaq üçün müsabiqə elan edir:**

**Nəzəri dilçilik şöbəsi üzrə**
aparıcı elmi işçi - 1 yer

Müsabiqədə filologiya üzrə fəlsəfə doktorları və filologiya elmləri doktorları iştirak edə bilərlər. Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq, elan dərc edilən gündən etibarən 1 ay müddətində elmi katibliyə təqdim edilməlidir.

**Ünvan: AZ1143, Azərbaycan Respublikası, Bakı ş., H.Cavid pr., 117, V mərtəbə Teklefon: (012) 5372088 (Elmi katib)**

## Şəki Regional Elmi Mərkəzi

**Azərbaycan Milli Elmlər Akademiyasının Şəki Regional Elmi Mərkəzi ştatda vakant olan vəzifələri tutmaq üçün müsabiqə elan edir:**

**"Ekoloji coğrafiya" şöbəsi üzrə**
şöbə rəhbəri - 1 yer, elmi işçi - 1 yer

**"Ədəbi-mədəni mühit, folklor və etnoqrafiya" şöbəsi üzrə**
şöbə rəhbəri - 1 yer

Müsabiqədə magistrlər və fəlsəfə doktorları iştirak edə bilərlər. Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq, elan dərc edilən gündən 1 ay müddətində aşağıdakı ünvana təqdim edilməlidir.

**Tələb olunan sənədlər:**

Rəhbərliyin adına ərizə;
Şəxsiyyət vəsiqəsinin surəti;
Əmək kitabçasının surəti;
Kadr uçotu vərəqi;
Elmi materiallarının surəti.

**Ünvan: AZ5500, Azərbaycan Respublikası, Şəki şəhəri, L.Abdullayev küç., 24. Telefon: (024) 24 6 05 04; (024) 24 6 04 11; (012) 585 35 83 E-poçt: shrem@science.az; shrem@mail.ru**

## Biofizika İnstitutu

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Biofizika İnstitutu aşağıdakı vakant yerləri tutmaq üçün müsabiqə elan edir:**

**"Hüceyrə siqnalının ötürülməsi" laboratoriyası üzrə:**
laboratoriya müdiri - 1 yer.

**"Fiziki-kimyəvi stress faktorlarının biofizikası" laboratoriyası üzrə:**
laboratoriya müdiri - 1 yer.

Müsabiqədə "Hüceyrə siqnalının ötürülməsi" laboratoriyası üzrə bioloji siqnalların ötürülməsi üzrə, xüsusən də ion kanalları üzrə geniş biliklərə və təcrübələrə malik olan, "Fiziki-kimyəvi stress faktorlarının biofizikası" laboratoriyası üzrə fiziki və kimyəvi stress faktorlarının biologiyası üzrə geniş biliklərə malik olan, bu sahələrdə yaranan problemlərin həlli üzrə rasional addımlar atmağa qabil olan, elmlər və fəlsəfə doktoru elmi dərəcəsi olan böyük təcrübəyə malik iddiaçılar iştirak edə bilərlər.

